

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Şəhid ailəsi üzvləri ilə bağlı yeni qayda təsdiqlənib



6

# “İqlim diplomatiyasında dönüş nöqtəsi”




4

SƏS
№ 218 (7143)
27 noyabr 2024-cü il.
Qiyməti 60 qəpik

## *Dünya mediası COP29-un nəticələrini geniş işıqlandırıb*

# Cənubi Qafqazda yeni dövr

## *Yaxud, ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələ*



2

### Qarabağ və Şərqi Zəngəzurun turizm potensialı




9

### Övladlarımızı teatra niyə APARMALIYIQ?



13

### Qarabağın inciləri: mikrofonsuz xanəndə



15

### Ali Məhkəmədən kreditlərlə bağlı MÜHÜM QƏRAR




16

### Ronaldo karyerasında 913-cü qolunu vurub



16

# Cənubi Qafqazda yeni dövr

## *Yaxud, ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələ*



Azərbaycan-ABŞ münasibətləri müstəqilliyimizin ilk günlərindən başlayıb. Respublikaçı ata Buşun prezidentliyi dövründə ölkəmiz müstəqilliyini elan edib və Ağ Evin sahibi tərəddüd etmədən Azərbaycanı dünya dövlətləri ailəsində görməkdən məmnun olduğunu məktubunda xüsusi olaraq qeyd edib. Bu ilin noyabrın 5-də keçirilən seçkilərdə Respublikaçı Donald Tramp ikinci dəfə ABŞ prezidenti seçildi və Demokratların qeyri-müəyyən idarəçiliyinə önümüzdəki 4 il ərzində əngəl olmağı bacardı. Demokratların hakimiyyəti barəsində belə düşünməyə bizi vadar edən çoxlu nüanslar var. Co Bayden prezidentliyə başlamasının ilk günündən dünya siyasətinə yanaşmasında nöqsanlara yol verdi. Dünya gücü hesab edilən və Demokratlardan təşkil olunmuş Vaşinqton administrasiyası ikili standartlara rəvac verdi, hələ də təsdiqini tapmayan, qondarma "erməni soyqırımı"nı tanıdı, Ermənistan-Azərbaycan savaşında işğalçı Ermənistana dəstək oldu, ABŞ konqresmenləri, Konqresin Nümayəndələr Palatasının spikeri səviyyəsində İrəvanda ermənilərin cinayətlərini görməzdən gəldilər və işğala məruz qalan Azərbaycanı "erməni torpaqlarını işğal edən ölkə" kimi tanıdılar. Əlbəttə, bütün bunlar absurd yanaşmalar idi.

Bayden hakimiyyəti ABŞ tarixinə qara ləkə kimi düşəcək. İdarəçilik qabiliyyəti getdikcə tükənən mister Co-nun əvəzindən ölkəni başqaları idarə edir, dünyanın taleyüklü məsələlərinin həllində Vaşinqtonun reaksiyası ya ləngiyir, ya da adekvat olmurdu. Bu da dünya ölkələri arasında münasibətlərdə ənənəvi yanaşmalardan sapmaya, ya da idarəolunmaz birvəziyyətə salırdı. Ukraynada baş verənlər, Yaxın Şərqə kütləvi qırğınla müşaiyət olunan müharibənin nəzarətdən çıxması, İran-İsrail qarşıdurmasının qanlı fazaya keçməsi, Şərq-Qərb münasibətlərində gərginlik, Cənub-Şərqi Asiya regionunda müharibə eskalasiyasının artması, Cənubi Qafqazda yeni müharibə riski, BMT Təhlükəsizlik Şurasında nizamsızlıq, üzv dövlətlər arasında anlaşmanın sıfırlanması, inamsızlıq, nüvə müharibəsi anonsu, bütün bunlar Baydenin ABŞ prezidenti olduğu bir dönəmdə yaşandı və bu gün də davam etməkdədir.



### Trampın qayıdışı...

Əslində 2020-ci ilin noyabr ayında keçirilən president seçkilərində Tramp məğlub yox, qalib namizəd idi. ABŞ-ın tarixində çox az-az görünən seçki etirazları, məğlub tərəfin tərəfdarlarının Kapitoli binasına hücumu və oranı ələ keçirmələri Baydenin seçkilərin nəticələrini oğurlamasına cavab idi. Necə deyərlər, daş qayaya rast gəlmişdi. Amma çılğın görünən Trampın hadisələrin sonrakı gedişində təmkin davranışı Demokratların demokratiyadan uzaq kütlə olduqlarını bir daha isbatladı. Tramp isə siyasətdən getmədi, 4 il gündəmdə olmağı bacardı, Respublikaçılar arasında nüfuzunu qoruyub saxladı. Mediada tez-tez görünməsi, dünya hadisələrinə reaksiyaları, Demokratların hakimiyyətini silkələyən fikirlərin səsləndirilməsi Trampın növbəti seçkilərdə namizəd olacağına bir işarə idi.

Trampa qarşı Federal prokuror tərəfindən həbs sanksiyasının verilməsinə hazırlıq da Bayden hakimiyyətinin cılızlığını ortaya qoymuş oldu. Trampdan qurtulmaq üçün Baydenin yeganə mübarizə planı onu yolundan istənilən üsullarla götürmək idi. Seçkilərə təxminən bir ay qalmış Bayden mübarizədən geri çəkildi və vitse-prezident Kamala Harrisin namizədliyini irəli sürdü. Əksər analitiklər Baydenin bu addımının məğlubiyyəti öz adına yazmamaq niyyəti ilə atıldığını qeyd edirlər.

### Yeni və korrektəli münasibətlər





Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampa zəng edib və onu təbrik edib. Təbrik məqsədli telefon zəngində bir sıra məqamlar diqqət çəkir. Dövlətimizin başçısı vurğulayıb ki, Prezident Donald Trampın fəaliyyəti dünyada təhlükəsizliyin təmin olunmasında daha da önəmli rol oynacaq. Baydendən fərqli olaraq Tramp praqmatik siyasətçidir. Onun prezident seçilməsinin bir çox münaqişələrin tənzimlənməsi ilə nəticələnəcəyi düşünülür. Azərbaycan Trampın hakimiyyəti dövründə Qarabağ problemini böyük ölçüdə həll etdi. Erməni lobbisinin Baydeni dəstəkləməsi təsadüfi deyil. Rəsmi Bakı düşünür ki, Trampın hakimiyyətə gələndən sonra Ermənistanla ikili danışıqlar effektiv olacaq və prosesə kənar təsirlər azalacaq. Başqa sözlə, sülh müqaviləsinin imzalanması daha real görünür. Təcrübə göstərir ki, kənar təsirlər olmasa, Ermənistanla uzlaşma əldə etmək mümkündür.

Birinci prezidentlik dövründə Azərbaycanla Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə Donald Trampın xüsusi diqqət ayırdığını deyən dövlət başçısı ikitərəfli əlaqələrin irəli aparılması üçün birgə səylər göstəriləcəyinə ümidvar olduğunu bildirib. Bakı ilə Vaşinqton arasında enişli-yoxuşlu bir münasibətlər sistemi var. Xüsusilə Co Baydenin hakimiyyəti dövründə ABŞ Azərbaycanla başda enerji sahəsi olmaqla, bir çox istiqamətdə əməkdaşlıqda maraqlı olduğunu desə də, hədə və təhdid ritorikası ilə danışmaqdan vaz keçmirdi. Həmçinin Rusiyanın Cənubi Qafqazda təsirini zəiflətmək və Ermənistanda nüfuz qazanmaq üçün İrəvanla Bakını qarşı-qarşıya gətirən situasiyalar yaradırdı.

Prezidentin təbrik mesajında qeyd etdiyi məqamlar D.Tramp dövründə Bakı-Vaşinqton münasibətlərinin normallaşması, hətta inkişafına olan inamın göstəricisidir. Azərbaycan ABŞ-la bir çox sahədə əməkdaşlıq edir və yeni perspektivlər var. Bakı Avropanın enerji təminatı kimi məsələlərdə ən etibarlı tərəfdaş kimi çıxış edir. Xüsusilə Azərbaycanın İran-İsrail, Türkiyə-İsrail, ABŞ-Rusiya, Ukrayna-Rusiya, ABŞ-Çin kimi tandemlərdə balans yaratmaq ustalığı Bakını Vaşinqtonun diqqət mərkəzinə gətirir. Fors-major hadisə baş verməsə, Trampın hakimiyyəti dövründə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalana bilər. Bu da regional aktor kimi Bakının çəkisini artırar. Avropaya nəql edilən təbii qazın artırılmasında da Azərbaycan-ABŞ münasibətlərinin normallaşması mühüm yer tutur.

*Ardı Səh. 3*

# Cənubi Qafqazda yeni dövr

## *Yaxud, ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələ*

Əvvəli Səh. 2

Prezident İlham Əliyev hələ Şuşa Qlobal Media Forumunda vurğulamışdı ki, Trampın hakimiyyətdə olduğu illərdə Azərbaycan-ABŞ münasibətləri qarşılıqlı faydalı əməkdaşlıq səviyyəsində idi. Tramp beynəlxalq sülhün və təhlükəsizliyin təminatı sahəsində çox ciddi işlər görüb. İnanırıq ki, Trampın ABŞ-də hakimiyyətə gəlməsi Azərbaycanla əlaqələrinin yaxşılaşmasına xidmət edəcək. Artıq bu reallıqdır. Təxminən iki aydan sonar Tramp rəsmi olaraq Baydeni Ağ Evdən çıxaracaq. Prezidentimiz Trampla telefon danışığı ilə bir daha nümayiş etdirdi ki, rəsmi Bakı-Vaşinqton münasibətlərində Bayden Administrasiyasının yeritdiyi yanlış region siyasəti ucbatından yaranmış gərginliyin aradan qaldırılması üçün mübit imkanlar yaranıb. Tərəflər bundan maksimum istifadə edəcəklər. Tramp kifayət qədər qətiyyətli siyasətçidir və Cənubi Qafqaz regionunda hansı maraqların olduğunu bilir. Eyni zamanda Azərbaycanın regionun lider dövləti olduğunun fərqindədir. Ölkəmizin beynəlxalq sülhün və təhlükəsizliyinin təminatı, beynəlxalq terrorçuluğa qarşı mübarizə, Avropanın enerji təhlükəsizliyində oynadığı rol və digər məsələlərlə bağlı ölkəmizin mövqeyini çox gözəl bilir. Azərbaycanın hansı coğrafiyada yerləşdiyini də hesabladıqda Trampın ikinci prezidentliyi dövrü Bakı-Vaşinqton münasibətlərinin inkişafı üçün əlavə imkanlar yaranacağını qətiyyətlə deyə bilərik.



### İlham Əliyev faktoru...

Azərbaycan regionun güclü dövlətidir, söz sahibidir, bütün layihələrin təşəbbüskarı və icraçısıdır. Bütün bunlar regionda marağı olan güclərin diqqətindən yayınmır, Azərbaycanla bu və ya digər şəkildə təmaslar qurmağa, əlaqələri genişləndirməyə, ölkəmizlə dostlaşmağa çalışırlar. Azərbaycan Prezidentinin beynəlxalq arenada nüfuzu, siyasi bilikləri, təcrübəsi, diplomatiya elmini dərindən bilməsi ölkəmizin xarici siyasət kursunun uğurla həyata keçirilməsində mühüm rol oynayır. Ölkələrin bir-birinin suverenliyinə hörmət etmələrinin, əməkdaşlığı gücləndirməklə qarşılıqlı faydalı əlaqələrin qurulmasının vacibliyini bəyan edən Prezident İlham Əliyev xarici siyasət kursunu bu prinsiplər əsasında qurub. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə əməl edən dövlət kimi tanınır. Ölkələrin suverenliyinə, ərazi bütövlüyünə və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət edir. Ona görə də dünya Azərbaycanın sözünü eşidir, Prezidentimizin təşəbbüslərinə dəstək verir.

Azərbaycan bütün qonşularla, digər xarici tərəfdaş ölkələrlə səmərəli əməkdaşlıq edir. Dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan mövcud münasibətlərini daha da möhkəmləndirə bilib. Azərbaycan-Türkiyə-Gürcüstan və Azərbaycan-Rusiya-İran üçtərəfli əməkdaşlıq platformaları buna əyani misaldır. Bu illər ərzində beynəlxalq təsisatlarla da səmərəli əməkdaşlıq əlaqələri qurması ölkəmizin beynəlxalq imicinin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Həmçinin Türk Şurası, Müstəqil Dövlətlər Birliyi, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və bu kimi digər qurumlarla səmərəli əməkdaşlıq əlaqələri daxildir.




### Seçkilər və qələbə reallığı

Trampın qələbəsi Amerika xalqının seçimidir və dəyişikliklərə inamın böyüklüyüdür. Xarici siyasətdəki aqressiv siyasət, xarici münaqişələrə böyük məbləğdə vəsait xərclənməsi, ölkə daxilində sosial narazılıqların artması, həmçinin etnik və dini azlıqlar arasında artan gərginliklər cəmiyyətdə ciddi iz buraxıb. Amerikalılar düşünürlər ki, ölkədən xaricdə baş verən hadisələri koordinasiya etməkdənsə, daxildəki problemlərə diqqət yetirmək lazımdır. Tramp seçki kampaniyasında bunu düşünərək düzgün istiqamət götürdü. ABŞ-nin xarici siyasətində rekonstruksiya aparılacağına şübhə yeri yoxdur, ölkədə iqtisadi islahatlar aparmaq və daxili problemlərə daha çox diqqət ayırmaq vədləri Trampın dəstəkçilərinin, tərəfdaşlarının, ona səs verənlərin sayını artırdı. Trampın qələbəsi, Amerika cəmiyyətinin tələbi, social sifarişi idi.



### ”Onun bir çox bəyanatları ilə razıyam”

Azərbaycan Prezidenti İlham Əliyev bu ilin iyul ayında Şuşada keçirilmiş 2-ci Qlobal Media Forumunda sualları cavablandırarkən Donald Tramp barədə demişdi: ” Tramp ”Vaşinqton Post”u və ”Nyu-York Tayms”ı feyknyus, yəni yalan xəbər mənbəyi adlandırıb. Mən tamamilə onunla razıyam. Mən təkcə bu məsələdə deyil, onun bir çox bəyanatları ilə razıyam. Bu gün ABŞ Prezidenti məhz media tərəfindən hücumların qurbanıdır, ictimai rəyin manipulyasiyasının qurbanıdır. Elə, sadəcə, bunu görəndə biz özümüzü bir az rahat hesab edə bilərik. Yəni, bu gün diqqət Azərbaycandan yayınıbdır. Əlbəttə, biz çox arzu edirik ki, media obyektiv olsun, hər kəs obyektiv olsun. Ancaq medianın xüsusi məsuliyyəti var. Çünki medianın mesajları, məsələni işıqlandırması bir çox insanların həyatına təsir edir. Mənim fikrimcə, Prezident Trampın hələ də davam edən kampaniya zamanı səsləndirdiyi mühüm tezislərdən biri də odur ki, onun vaxtında heç bir müharibə olmayacaq. Onun hakimiyyəti dövründə Amerika müharibələrə başlamadı, Vyetnam, Koreya, Yuqoslaviya, Əfqanıstan, Liviya, İraq, Suriya və necə deyərlər, onların davamı olmadı. Bax, bu müddət ərzində onların heç biri baş vermədi. Ancaq buna, yəqin ki, böyük hörmətlə yanaşmağa dəyər”.

Donald Trampın qələbəsi ABŞ-nin xarici siyasətində və müxtəlif ölkələrlə əlaqələrində, xüsusilə də Azərbaycanla münasibətlərində mühüm bir dönüş nöqtəsi ola bilər. Trampın yenidən Ağ Evə qayıdışı ABŞ-nin beynəlxalq arenada mövqeyinin necə dəyişəcəyinə dair çoxsaylı suallar doğurduğu kimi, bəzi qlobal məsələlərin həllində köklü dəyişikliklərin olacağına da ümidlər yaradır. Perspektivdə ABŞ və Azərbaycan arasındakı münasibətlər əsasən enerji, təhlükəsizlik və ticarət sahələrində güclənə bilər. Tramp administrasiyasının Azərbaycanın enerji resurslarına olan marağının davam etməsi, ikitərəfli münasibətlərin inkişafına təkan verəcək. Cənubi Qafqaz, xüsusilə də Azərbaycan ABŞ-ın strateji maraqlarına cavab verən mühüm bir regional partnyora çevrilə bilər.

***V.VƏLİYEV***

# “İqlim diplomatiyasında dönüş nöqtəsi”

## *Dünya mediası COP29-un nəticələrini geniş işıqlandırıb*

***Türkiyə mətbuatı Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yekunlarını geniş işıqlandırıb. Belə ki, ”Haber Global” telekanalı Bakıdan hazırladığı reportajda COP29 çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə üçün ildə 300 milyard dollar sərmayə qoymağa hazır olduqlarını elan edən inkişaf etmiş ölkələrin öhdəliklərinə diqqət çəkib.***

Reportajda qeyd olunur ki, Bakıda ikihəftəlik intensiv danışıqlar ”iqlim maliyyələşməsi”nin həcminin mərhələli artırılması ilə bağlı mühüm razılığın əldə olunmasına imkan verib.

Telekanal COP29-u ”iqlim diplomatiyasında dönüş nöqtəsi” adlandıran Azərbaycan Prezidenti İlham Əliyevin çıxışına diqqət çəkib və bu məsələ ilə bağlı ekspert qiymətləndirmələrini də təqdim edib. ”Anadolu” xəbər agentliyi, həmçinin COP29 çərçivəsində ”iqlim maliyyələşməsi” mövzusunda fəal müzakirələrə, eləcə də Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizəyə töhfəsinə diqqət çəkib.

Qardaş ölkənin aparıcı informasiya agentliyi Prezident İlham Əliyevin ”Yaşıl dünya naminə həmrəylik” şüarını rəhbər tutaraq, Azərbaycanın vicdanlı vasitəçi kimi çıxış etdiyini və iqlim danışıqlarına qərəzsiz dəstəklənməsi üçün bütün imkanlardan istifadə etdiyi barədə bəyanatından sitat gətirib. Agentlik, həmçinin Azərbaycanda iqlim sammitinin təşkilinin səviyyəsini yüksək qiymətləndirən Bosfor Universitetinin professoru Levent Kurnazın qiymətləndirməsini də qeyd edib.

Ekspert qeyd edib ki, Türkiyə COP29-da iştirakı sayəsində qardaş ölkənin bu cür irimiqyaslı tədbirlərin təşkili təcrübəsini, o cümlədən Ankaranın COP31-ə ev sahibliyi etmək üçün müraciəti fonunda öyrənmək imkanı əldə edib.

Eyni zamanda, L.Kurnaz iqlim dəyişiklikləri ilə mübarizədə Qərb ölkələrinin yekun öhdəliklərini qeyri-kafi adlandırıb. Ekoloji xəbərlər üzrə ixtisaslaşmış ”Yeşil Gazete” (”Yaşıl Qəzet”), eləcə də bir sıra digər nəşrlər iqlim dəyişiklikləri ilə mübarizə ilə bağlı Türkiyənin Uzunmüddətli Strategiyasının təhlili prizmasından iqlim sammitinin nəticələrini işıqlandırıblar. Türkiyənin media strukturları rəsmi Ankaranı kömürdən tamamilə imtina etməyə çağıran ölkədəki bir sıra ətraf mühit təşkilatlarının mövqeyini də işıqlandırıb.

Bundan başqa, Ukraynanın nüfuzlu KİV-ləri də Bakıda COP29-da əldə olunmuş razılaşmaya dair məqalələr dərc edib. ”Ukrinform”, ”RBC-Ukrayna”, informasiya agentlikləri, ”LB.ua”, ”Ekonomiçeskaya Pravda” və digər xəbər portallarında dərc olunan məqalələrdə COP29 razılşamasının tarixi əhəmiyyəti qeyd olunub.

Bildirilir ki, COP29 razılaşması iqlim dəyişikliyi ilə mübarizədə gələcək addımların əsasını qoyub. Yekun razılaşmaya əsasən, zəngin ölkələr 2035-ci ilə qədər yoxsul ölkələrə iqlim dəyişikliyi ilə mübarizədə kömək etmək üçün ildə ən azı 300 milyard dollar ayırmağa razılaşıblar. Bakı Maliyyə Məqsədi əhəmiyyətli artım nümayiş etdirərək inkişaf etməkdə olan ölkələrə 2035-ci ilə qədər 1,3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsinin təmin edilməsi üçün yeni qlobal hədəf qoyur. Buraya əvvəlki 100 milyard ABŞ dolları həcmində hədəfi üç dəfə üstələyən 300 milyard ABŞ dolları həcmində yeni əsas maliyyə hədəfi daxildir.

Məqalələrdə COP29 razılşamasının strateji əhəmiyyəti qeyd olunub.


Azerbaycan Cumhurbaşkanı Aliyev, COP29'un iklim diplomasisinde dönüm noktası olduğunu belirtti


Enerji Gazetesi.ist

İklim STK'larından COP29 Değerlendirmesi

Kategori : ENERJİ GÜNDEMİ, KÖMÜR, NÜKLEER ENERJİ - Tarih : 24 Kasım 2024

İklim alanında faaliyet gösteren sivil toplum kuruluşları, Bakü'de sona eren COP29 İklim Zirvesi ile ilgili ortak bir açıklama yaptı. Açıklamada, Türkiye'nin kömürden çıkış tarihi vermediği gibi nükleer enerji kapasitesini artırmayı hedefleyerek enerjide pahalı, kirli ve dışa bağımlılığı artıran bir yola girdiği ifade edildi.


РБК-УКРАЇНА

Саммит COP29: выделенных денег бедным странам недостаточно для борьбы с изменениями климата

ВОСКРЕСЕНЬЕ 24 НОЯБРЯ 2024 04:44

Фото: на боротьбу із зміною клімату виділятимуть 300 млрд доларів на рік (Getty Images)


ЭКОНОМИЧЕСКАЯ ПРАВДА

Климатический саммит одобрил финансирование на $300 млрд развивающимся странам

ВОСКРЕСЕНЬЕ, 24 НОЯБРЯ 2024, 10:00 - ВЛАДИМИР ТУНИК-ФРИЗ, УКРАИНСКАЯ ПРАВДА

Страны-участницы Климатического саммита ООН COP-29 согласовали новое коллективное соглашение по климатическому финансированию в размере 300 миллиардов долларов в год, эту сумму называют крайне недостаточной


LB.ua

Головна — Світ — 24 листопада 2024, 12:33

Учасники кліматичного саміту ООН домовилися про фінансування для країн, що розвиваються

Багаті країни до 2035 року будуть виплачувати 300 мільярдів доларів на рік, щоб допомогти бідніщим країнам


УКРІНФОРМ

У Міндовкілля розповіли про результати конференції ООН зі зміни клімату

...сниці конференції ООН зі зміни ...Р29 домовилися про нову ...у ціль - 300 млрд дол. на рік до ... для країн, що розвиваються. ...атичні фінанси будуть


Bodrumhaber

Türkiye'nin COP29'daki Enerji Stratejisi: Fosil Yakıtlar ve Nükleer Enerji Tartışmaları

COP29 İklim Zirvesi'nde Türkiye, kömürden çıkış için bir tarih açıklamadı ancak nükleer enerji kapasitesini 2050'ye kadar üç katına çıkarma taahhüdünde bulundu. Çevre Bakanı Murat Kurum, fosil yakıtlardan çıkış sinyali verirken net bir takvim açıklamadı. Uzmanlar, bu politikaların net sıfır hedefiyle çeliştiğini belirtti.


yeşilgazete

[COP29] Nihai anlaşma sağlandı: Yılda 300 milyar dolar iklim finansmanı


DAILY SABAH

COP29 clinches $300B climate finance deal, deemed 'insufficient'

# Hayların reallıqdan uzaq XƏYALLAR ALƏMİ

***Dünya düzənində baş verən dəyişiklikləri, yenilikləri sanki Ermənistan heç görmür. Bütün dünya ictimaiyyəti beynəlxalq miqyasda hansısa qlobal məsələlərin həlli barədə düşündüyü halda, haylar hələ də sərsəm xəyalların qulu olaraq, özlərinə məxsus hansısa aləmin məxluqları kimi davranırlar. Hələ də reallıqlardan uzaq olan ermənilər sanki xəyallar aləmində yaşayırlar və hələ də hansısa utopiyanın təsirindən çıxa bilmirlər.***



## Haylar reallıqları olduğu kimi qəbul etsəydilər, real layihələrə, inkişafa maraq göstərsəydilər müstəqil olardılar, oyuncağa çevrilməzdilər

Ötən əsrin əvvəllərində də, sonunda da eyni şəkildə sərsəm ideyalara uyaraq, qonşu ölkələrə qarşı ərazi iddiaları ilə çıxış edən haylar bunun mənasız olduğunu, onların fəlakətinə gətirib çıxardığını elə bil ki, başa düşmək istəmirlər. Hər dəfə Cənubi Qafqazda qırğınlar, soyqırımlar törədən bir toplum sonda özü də faciələrlə qarşılaşmaqdan deyəsən heç bir dərs almayıb. Dərs almış olsaydı bu, davamlı şəkil almazdı. Haylar reallıqları görmüş və başa düşmüş olsaydılar, bu qədər "oyun" oynamazdılar. Çünki reallıqları yalnız görməklə başa düşərdilər ki, qurduqları hiyləgər və xain "oyunlar" gec-tez "öz başlarında çatlamış" olacaq. Məsələ burasındadır ki, öz qonşularına, özü də onlara yer verən, yerlərini də daha yaxşı, daha səfalı yerlərdən ayıranlara qarşı nifrət hissinin nə demək olduğunu belə çıxır, haylar nəinki başa düşməyiblər, heç başa düşmək də, qəbul etmək də istəmirlər. Bax elə bu da onların hazırki vəziyyətə düşmələrin səbəb olub. Türklərə qarşı nifrət hissinin təsiri altında olan haylar zaman-zaman öz qərəzli, düşmən mövqelərini ortaya qoymaqla müxtəlif faciələr törədiblər, amma bunun ardınca onlar özləri də az məşəqqətlər, zülümlər görməyiblər. Daim hansısa iyanələrə, yardımlara göz dikmələri də bu baxımdan səbəbsiz sayılmır.

Cənubi Qafqaza bir zamanlar köçürülən hayların elə məhz həmin ərazilərin əsl sahiblərinin boğazında "kal armud" olmaları bir reallıqdır və özləri bu reallığı nə qədər tez görmüş, tez başa düşmüş olsalar bir o qədər özləri üçün yaxşı olar. İlk növbədə əlbəttə ki, özləri üçün yaxşı ola bilər, çünki reallıqdan uzaq olanlar hər şeydən uzaq düşmüş olurlar. Əgər haylar reallıqları vaxtında görmüş, dərk etmiş olsaydılar, işğalçılıqdan əl çəkərək, qlobal və regional layihələrə maraq göstərərdilər və indi səfalət içərisində olmazdılar. Əgər zamanında iqtisadi baxımdan inkişaf barədə düşünsəydilər, dövlətin iqtisadi inkişafının daha vacib olduğunu anlayaraq qəbul etsəydilər, bu qədər asılı vəziyyətdə qalmaz, bir zamanlar Rusiyanın, indi də Qərbin oyuncağına çevrilməzdilər.

## Xülyalardan əl çəkmədikcə xəyallar aləmindən uzaqlaşmaq mümkün olmadığı üçün həmin aləmi tərk edə bilmirlər

Hər zaman haylar əvvəla, öz xislətlərinə uyğun şəkildə davranış nümayiş etdiriblər. Əvvəlcə özlərinə "yer ediblər" və bundan sonra da özləri üçün yer elədikləri ərazilərdən birbaşa Azərbaycan ərazilərinə, Türkiyə kimi digər qonşu ölkələrin ərazilərinə də göz dikiblər. Daha doğrusu ərazi iddiası ilə çıxış ediblər, özlərinə məxsus olmayanı mənimsəməyə çalışıblar. Düzdür, haylar məhz məskunlaşdıqları ərazilərdən məhz elə ərazi iddiasında olduqlarına görə qovulublar və faciəvi şəkildə sonluqla qarşılaşmalı olublar. Çətin ki, yaddaşlarına həkk edilən həmin faciələrinin səbəbkarlarının məhz özləri olduğunu, özlərini elə özləri həmin faciəyə sürüklədiklərini belə çətin ki, başa düşməsinlər. Çox yaxşı başa düşürlər ki, günah onların özlərində olub, yenə də özlərindədir və törətdiklərinin hesabını da vermələri sadəcə olaraq, ilk növbədə haqqın, ədalətin qələbəsi, təntənəsidir. Ən azından dərk etmək məcburiyyətindədirlər ki, onsuz da onlara nə torpaqlar qismət olur, nə iddia etdikləri ərazilərə məxsus təbii sərvətlər, resurslar onların olmur. Son nəticədə hər birinin sahibi özünə məxsus olanı onların əlindən alır, müvəqqəti olaraq istismar etmələrinə də son qoyulur. Bax, əsl həqiqətlər, reallıqlar bunlardır və bu həqiqətləri, bu reallıqları nəzərə almadan hansısa xülyalarla yaşamaq məhz xəyallar aləmində olmaq deməkdir ki, haylar da həmin aləmi deyəsən tərk edə bilmirlər.

## Bölgədə vəziyyəti öz xislətlərinə uyğun şəkildə gərginləşdirməsəydilər, özləri də gərgin vəziyyətə düşməzdilər

Əgər Cənubi Qafqazın bu "gəlmə" tayfası reallıqları qəbul etmiş olsaydı, elə regionda da normal şəkildə yaşayışını davam etdirə bilərdi. Bölgədə vəziyyəti ən azından öz xislətlərinə uyğun şəkildə gərginləşdirməsəydilər özləri də gərgin vəziyyətə düşməzdilər. Əgər inkişafa nail olmaq, uğur, nailiyyət əldə etmək barədə düşünsəydilər düz 30 ilə yaxın, əsrin üçdə birinə yaxın dövr ərzində gözlərini açıb baş verənlərə, qlobal layihələrə baxa bilərdilər və iqtisadi baxımdan inkişafın nə demək olduğunun fərqində olardılar. Heç olmasa Azərbaycan nümunəsi onlara kifayət etməli idi. Görməli idilər ki, onlar əraziləri işğal etməklə, viran qoymaqla, təbii sərvətləri talan etməklə, fauna və floraya zərər vuraraq ekoloji terrorla məşğul olmaqla başlarını qarışdırdıqları, zaman itirdikləri dövr ərzində Cənubi Qafqazda qlobal və regional layihələr reallaşır və region ölkələri bundan hər mənada, hər istiqamətdə faydalanırlar. Heç olmasa 44 günlük müharibə dönəmində Azərbaycanın hansı qüdrətə, hansı gücə, hansı potensiala sahib olduğunu, inkişafının hansı dərəcəyə gəlib şatdığını görməli idilər və başa düşməli idilər ki, qərəzdən, pislikdən, ilk növbədə işğalçılıqdan əl çəkib normal münasibətlərə üstünlük verməməklə özləri özlərini geri salıblar və səfalətə, hətta məhvə doğru sürükləyiblər. Elə əsl həqiqətlər, əsl reallıqlar bundan ibarətdir və bunu gec olsa başa düşmək, zərb məsəldə deyildiyi kimi, ziyanın yarısından da olsa qayıtmağın məqsədəuyğun olduğunu anlamaq da yetərli idi. Məsələ burasındadır ki, deyəsən haylar hələ də reallıqları başa düşmək kimi niyyətdə də deyillər, əks halda biz bunu heç olmasa son dövrdə belə görə, müşahidə edə bilərdik.

## Reallıqları görməməzliyə vurmaqla, nəyə isə nail olacağı qənaətində olan rəsmi İrəvan xam xəyallara düşmüş olur və xəyallar aləmində qalır

COP29 kimi bir beynəlxalq tədbirin planlaşdırıldığı və keçirildiyi dövrdə müşahidə etdik ki, rəsmi İrəvanın həmin tədbirə qatılmaq üçün iradəsi, qətiyyəti çatmır və tərəddüd etdiyi də bəlli oldu. Bəlli oldu ki, Ermənistan tərəfi hələ də reallıqlarla barışmaq istəmir və ümimiyyətlə, Azərbaycanın belə bir tədbirə, qlobal miqyaslı tədbirə ev sahibliyi etməsini həzm edə bilmir. Xüsusən də ölkəmizin uğurları, nailiyyətləri Ermənistan tərəfindən qısqanclıqla qarşılanır və iştirak etməkdən imtina olunması özü də bunun sübutudur. Lakin haylar başa düşə bilmirlər ki, onların iştirak edib-etməmələrindən asılı olmayaraq, Azərbaycan həmin beynəlxalq tədbirə ev sahibliyi etdi və kimlərsə tədbirin uğurla başa vurulmasına zərrə qədər də olsa mənfi təsir edə bilmədilər. Əksinə, nə etdilərsə, ilk növbədə özlərinə etdilər və dünya ictimaiyyəti bir daha əmin oldu ki, qlobal miqyasda olan məsələlər, problemlər Ermənistan üçün heç də maraqlı deyil.

Ermənistan hər zaman olduğu kimi, dünyanın qarşılaşdığı, yaxud da qarşılaşmaqda olduğu, qarşılaşa biləcəyi problemlərin, məsələlərin aradan qaldırılması üçün zərrə qədər də səy göstərmək niyyətində olmadığı bir daha öz təsdiqini tapdı. Görünən odur ki, haylar bəşəriyyəti narahat edən məsələlərin, problemlərin aradan qaldırılmasına deyil, yeni-yeni problemlər yaratmağa meyillidirlər. Hər halda, 30 ilə yaxın müddət ərzində ekoloji terrora imza atan, işğal etdikləri Azərbaycan ərazilərində fauna və floraya, ətraf mühitə vurduqları zərəri də dünya ictimaiyyəti yaxşı bilir və nəzərə də alır. Məhz bu rakursdan baxdıqda görürük ki, mövcud reallıqları görməməzliyə vurmaqla, bunlara qarşı gəlməklə, nəyə isə nail olacağı qənaətində olan rəsmi İrəvan xam xəyallara düşmüş olur və haylar reallıqlardan uzaq olmaqla, hələ də xəyallar aləmində qalmış olurlar.

***İnam Hacıyev***


## "Nar" abunəçiləri üçün "İnternetKredit" xidmətini təqdim edir




Sərfəli mobil operator "Nar" abunəçilərinə balanslarında yetərli məbləğ olmadığı zaman "İnternet-Kredit" xidməti vasitəsilə internet paketləri sifariş vermək imkanı yaradıb. Abunəçilər *771#200#YES şifrəsini yığmaqla 200 MB və *771#800#YES şifrəsini yığmaqla 800 MB həcmində data kredit götürə bilər. Sifariş olunan 200 MB data kredit üçün 0.68 AZN, 800 MB data kredit üçün isə 1.88 AZN məbləğ hesablanır. Bu məbləğlər data paketi, xidmət haqqı və sorğu xərclərinin tam dəyərini özündə ehtiva edir və paketlərin ümumi dəyəri abunəçi balansını artırdığı zaman çıxılır.

Qeyd edək ki, birdən çox data kredit götürmək də mümkündür - bu zaman ümumi kredit məbləği abunəçinin mövcud limitinə əsasən dəyişir. "Nar" nömrəsinin mövcud data kredit borcunu *771#150#YES şifrəsi ilə nəzarətdə saxlamaq mümkündür. "İnternetKredit" xidmətindən istifadə etməzdən öncə *771#7#YES şifrəsini yığaraq nömrənizin kredit götürmək üçün uyğunluğunu yoxlayın. Həmçinin, nar.az/Narkredit səhifəsindən xidmət haqqında bütün məlumatı əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Şəhid ailəsi üzvləri ilə bağlı yeni qayda təsdiqlənib

*Hansı yeniliklər var?*



**Nazirlər Kabineti "Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası"nı təsdiq edib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, yeni Qaydaya əsasən, uçota alınmış şəxsin uçotunun onun ailə üzvləri üçün saxlanılması məqsədilə ailə üzvlərinin birgə razılığı əsasında ailənin yetkinlik yaşına çatmış üzvlərindən biri (belə şəxs olmadıqda qəyyum (himayəçi), patron (köməkçi) və ya vəkil edilmiş şəxs), yeni ailənin təmsilçisi uçota alınmış şəxs vəfat etdiyi gündən etibarən üç ay müddətində uçota alınmanı həyata keçirən orqana (uçota alınmış şəxsin Mənzil Məcəlləsinin 51.3-cü maddəsinə əsasən yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alındığı müvafiq yerli icra hakimiyyəti orqanı və ya bələdiyyə orqanına) və ya "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri"nə ərizə ilə müraciət edir.

Bu zaman aşağıdakı sənədlər təqdim edilir:

- həmin şəxsin və digər ailə üzvlərinin şəxsiyyətini təsdiq edən sənədlərin surəti,

- ailəni təmsil etməsi barədə ərizə (yaşayış yeri üzrə rayon (şəhər) icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin və ya "ASAN xidmət" Mərkəzinin yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışına əsasən notarial qaydada təsdiq edilir),

- uçota alınmış şəxsin ölümü haqqında şəhadətnamənin surəti,

- yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, sonradan şəhid statusu verilməsi haqqında arayış.

Həmin sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından əldə edilməsi mümkün olduqda onlar tələb edilmir, mümkün olmadıqda onların təqdim edilməsi təmsilçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından tələb olunur və ya təmsilçi tərəfindən təmin edilir.

Uçota alınmanı həyata keçirən orqan və ya vahid əlaqələndirmə mərkəzi tərəfindən təmsilçiyə qəbul edilən sənədlərin siyahısı və sənədlərin qəbuledilmə tarixi barədə qəbz verilir. Sənədlərin təqdim edildiyi gündən 30 iş günündən gec olmayaraq təmsilçinin uçota alınmış şəxsin əvəzinə uçota alınması və ya bundan imtina edilməsi barədə (səbəbləri göstərilməklə) qərar qəbul edilir.

Qərar qəbul edildiyi gündən 3 iş günündən gec olmayaraq surəti təmsilçiyə şəxsən verilir və ya poçt vasitəsilə göndərilir, yaxud təmsilçiyə göndərilməsi üçün qeyd edilən vahid əlaqələndirmə mərkəzinə təqdim olunur.

***Mətləb Salahov***




# "Çalışırlar ki, bizi psixoloji cəhətdən sındırsınlar"



**"COP29-la bağlı hələ tədbir başlamamış artıq Qərb institutları, dövlət rəhbərləri, nümayəndələr Azərbaycana qarşı qarayaxma kampaniyalarını tətbiq etməklə çalışırdılar ki, bu prosesin qarşısını alsınlar". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.**

O bildirib ki, cəmiyyətdə fikirləri parçalamağa istəklər nümayiş etdirirdilər: "Digər tərəfdən bilirdilər ki, iqlim dəyişiklikləri kontekstində söhbət ancaq atmosferə buraxılan zəhərli qaz və digər tullantılarla bağlıdır, bu sahədə də birinci sırada məhz Qərb ölkələridir. Onlar anlayırdılar ki, törətdikləri bu dağıdıcı siyasətə görə cavab verməli, məsuliyyət daşımalı, digər tərəfdən də maliyyə dəstəklərini əsirgəməməlidirlər.

Azərbaycan həmişə belə tədbirlərə ev sahibliyi etməzdən əvvəl ona qarşı hücumlar başlayır. Çalışırlar ki, bizi psixoloji cəhətdən sındırsınlar. Elə fikirlər təlqin edirlər ki, guya, Azərbaycan demokratiyadan uzaq məmləkətdir və burada belə tədbirlərin keçirilməsi məqsədəuyğun deyil. Bunlar cəfəng fikirlərdir. Özləri də anlayırlar ki, əgər demokratik normaların pozulmasından söhbət gedirsə, Qərb gərək danışmasın. Onlar bu proseslərin hamısında birinciliyi əldə saxlayırlar. Özlərində insanlara qarşı təqiblər tətbiq olunur, dini, milli zəmində Qərb ölkələrində problemlər çox dərindir. Ona görə də onlar süni bəhanələri Azərbaycanın adına yazmaqla çalışırlar ki, özlərini üstün göstərsinlər. Elə fikirlər formalaşdırırlar ki, guya, demokratiyanın açarı, sirri onlardadır. Əslində belə deyil. Çünki hər ölkənin demokratik yolu var. Ümumiyyətlə, demokratiya məqsəd deyil, vasitədir.

Bizim müəyyən edilmiş yolumuz var. Hələ Ulu Öndər Heydər Əliyev deyirdi ki, məqsədimiz hüququ dövlət yaratmaqdır. Hüquqi dövlət o dövlətdir ki, orada həmişə proseslər qanunlarla tənzimlənir".

Onun sözlərinə görə, COP29-a gəldikdə isə onlar çalışırdılar ki, fikirlərin hamısını parçalasınlar: "Digər tərəfdən insanlara düşünməyə və məqsədyönlü fəaliyyət göstərməyə maneəçilik törətməyə çalışırdılar. Ən yaxşı halda onlar buna nail oldular ki, 3-4 ölkə gəlmədi. 200 ölkənin 196-sı Azərbaycana gəldi. Azərbaycanda çox işgüzar atmosfer formalaşmışdı. Bu proseslərin hamısından iştirakçılar məmnunluq duyurdular. Çünki Bakı sammitində böyük irəliləyişlər əldə olundu. Söhbət trilyonlardan gedir, amma biz bilirik ki, böyük valyuta ehtiyatları olan ölkələr əllərini ciblərinə salmağa tələsmirlər. Çalışırlar ki, yükün ağırlığını inkişafda olan ölkələrin üzərinə atsınlar. Nahaq yerə Bakı sammitində Prezident İlham Əliyevin təşəbbüsü ilə dənizaşırı ada dövlətlərinin də sammiti keçirilmədi. Prezident orada həmin ölkələrin adını çəkdi. Hətta onlar öz ölkəsinin paytaxtlarını, prezidentlərini tanımırlar. Bakı sammiti bir neçə göstəricisi ilə artıq tarixə tutarlı imzalar atdı. Bir tərəfdən biz maliyyə yığımında irəliləyiş əldə edə bildik. Birinci gün altıncı bəndlə bağlı müzakirələrə başladı və məhsuldarlıq nümayiş edildi. Bu, kiçik məbləğ deyil. Dünya birliyi bundan da artıq büdcəyə maraqlıdır. Söhbət ən azı 1 trilyon 300 milyarddan gedir. Çalışacaqlar ki, hamının üzərinə məsuliyyət atsınlar.

Karbon qazlarının Xəzərə buraxılmasına qaldıqda isə burada yeni mexanizm quruldu. Mexanizm ondan ibarətdir ki, Azərbaycana 500 milyard metr? veriləcək. Amma Azərbaycan bunun 300-nü istifadə edəcək. Qalan hissəsini Azərbaycan başqa ölkəyə sata bilir. Bu o deməkdir ki, bizdə qalıq varsa, onu qəbul olunmuş qaydada bunu istəyən ölkələrə verə bilərik. Qiymət də bazar münasibətlərinə əsaslanan dəyərdə olacaq. Prosesin gedişində gördük ki, atmosfer son dərəcə sağlamdır, gələn qonaqların da fikri bu idi ki, Azərbaycan yüksək səviyyədə hazırlanmışdı. Siyasi cəhətdən isə Prezident İlham Əliyevin çıxışları onluğa dəydi. Bildirdi ki, sabotajla məşğul olan ölkələrin hücumları təkcə Azərbaycana qarşı deyil. Bu tədbir BMT-nin tədbiridir. Bu, həm də beynəlxalq birliyə qarşı etinasız göstəricidir. Biz burada Qoşulmama Hərəkatının da faydalarını gördük. Dənizaşırı ada dövlətlərinin də səsləri dünya qarşısında eşidildi".

***Söylü Ağazadə***

*MÜTƏXƏSSİS AÇIQLADI*

# Ən çox Omeqa-3 ehtiva edən balıq hansıdır?

"Omeqa-3 yağ turşuları insan sağlamlığı üçün həyati əhəmiyyət daşıyan doymamış yağlardır. Bu maddələr ürək-damar sistemi, beyin funksiyaları, immunitet və iltihabların azaldılması üçün çox faydalıdır. İnsan orqanizmi Omeqa-3 yağ turşularını sintez edə bilmədiyi üçün onları qidalar vasitəsilə almaq vacibdir. Balıq və dəniz məhsulları omeqa-3-ün əsas təbii mənbələridir". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib.

Asim Vəliyev sözlərinə belə davam edib: "Qızılbalıq omeqa-3 yağ turşularının ən zəngin mənbələrindən biridir. Hər 100 qram qızılbalıqda təxminən 2.2-2.5 qram EPA və DHA birləşməsi mövcuddur. Bundan əlavə qızılbalıq D vitamini, selenium və yüksək keyfiyyətli proteinlə zəngindir.

Skumbriya balığı da omeqa-3 yağ turşuları ilə zəngindir. Hər 100 qram skumbriya təxminən 2.6 qram omeqa-3 ehtiva edir. Bu balıq növü həm də B12 vitamini və seleniumla zəngindir, ancaq bəzi növləri yüksək civə səviyyəsinə malik ola bilər, bu səbəbdən diqqətli olmaq lazımdır.

Sardinalar omeqa-3 yağ turşuları ilə yanaşı kalsium və D vitamini ilə də zəngindir. Hər 100 qram sardina təxminən 1.5-2.0 qram omeqa-3 ehtiva edir. Sardinaların çoxu konserv şəklində satılır və əlavə olaraq asanlıqla əldə edilə bilər.

Tuna balığı omeqa-3 yağ turşularını təmin edən əsas balıqlardan biridir. Xüsusilə orkinos (albacore) növü yüksək EPA və DHA tərkibinə malikdir. Hər 100 qram tuna 1.2-1.6 qram omeqa-3 təmin edə bilər. Lakin, tunanın bəzi növləri civə ilə çirklənmə riski daşıdığı üçün həddindən artıq istehlak edilməməlidir. Omeqa-3 yağ turşuları müxtəlif orqan və sistemlərə müsbət təsir edir. Triqliserid səviyyəsini azaldır, qan təzyiqini normallaşdırır və iltihabları aradan qaldırır. Omeqa-3 sinir hüceyrələrinin quruluşunda iştirak edir və alzheimer, depressiya və diqqət çatışmazlığı kimi problemlərin qarşısını ala bilər.

Hər balıq növünün özünəməxsus xüsusiyyətləri var və seçim şəxsi ehtiyaclara və sağlamlıq vəziyyətinə bağlıdır. Əgər omeqa-3 tərkibi əsas prioritetdirsə, qızılbalıq, skumbriya və sardina daha yaxşı seçimdir. Lakin, civə riski yüksək olan balıqlar (skumbriyanın bəzi növləri, tuna, qılınc balığı) həftədə bir və ya iki dəfədən çox istehlak edilməməlidir.

Omeqa-3 yağ turşularının təbii mənbəyi olaraq balıqlar sağlam qidalanmanın əvəzolunmaz bir hissəsidir. Qızılbalıq, skumbriya, sardina və hamsi kimi növlər tərkibindəki yüksək EPA və DHA miqdarı ilə fərqlənir. Lakin, balanslı və müxtəlif qidalanma üçün digər mənbələrdən də (kətan toxumu, qoz, çia toxumu) omeqa-3 əldə etmək tövsiyə olunur. Həmçinin balıq seçərkən ekoloji təsirləri nəzərə almaq və davamlı balıqçılıqdan əldə edilən məhsullara üstünlük vermək vacibdir".

***Ayşən Vəli***

# Boşanmaların əsasında nə dayanır?

***2024-cü ilin yanvar-sentyabr ayları ərzində qeydə alınan nikah və boşanmaların sayı məlum olub. 36 min 651 nikah və 15 min 964 boşanma halı qeydə alınıb. Ölkədə 9 ay ərzində ailə quranların yarısı demək olar ki, boşanıb. Bu çox qorxunc bir göstəricidir. SİA olaraq şəhər sakinlərinə "Sizcə boşanmaların əsasında nə dayanır?", "Kim daha çox boşanmağa meyillidir: qadınlar, yoxsa kişilər?", "Əgər boşanası olsaydınız, hansı səbəbdən boşanardınız?", "60 yaşdan yuxarı yaş qrupunda olan insanların da boşanması müşahidə edilir. Bu hansı səbəbdən ola bilər və buna necə baxırsınız?" kimi suallarla müraciət etdik.***





**Şəhər sakini Məhəmməd Məmmədli:** "İnsanlar bir-birini tanımadan evlənirlər. Mənim fikrimcə, ona görə də, boşanmalar çoxalıb. Böyük yanlışlardan biri də budur. Bir-birlərini tanıyıb evlənsələr, daha yaxşı olar. İlk səhvdə boşanmaq yerinə qarşı-qarşıya oturub problemlər haqqında müzakirələr etsələr, yaxşı olar. Bir-birlərini dinləməlidirlər.



Məncə, boşanmalar bitməz, amma sayı azalar. Mənim fikrimcə, ailədə güvən əsas rol oynayır. Ailə fərdləri bir-birinə inanmalıdır. Güvən olmasa, digər şeylərin önəmi yoxdur. Mən boşanmalı olsaydım, bu ailəni qorumaq üçün birinci növbədə çox düşünərdim, düzəlməsə heç nə mən də məcbur boşanardım".

**Şəhər sakini Elnur İsmayılov:** "Boşanmaların əsas səbəbi maddiyyat problemi, bir-birlərini anlamamaqdır. Ən əsası isə maddiyyatdır. Xanımların dözümü azalıb. Boşanmaq istəyənlərin çoxu xanımlardır. Bir xanıma sual verirlər ki, "Siz nə vaxt xoşbəxt olmusunuz,



Sovet vaxtında, yoxsa indi? Xanım cavab verib ki, Sovet vaxtında". Çünki o zaman istəklər az idi. Amma indi xanımların istəkləri çoxalıb. Çeşid çoxdur və maddiyyat çatmır. Kişilər də bunu qarşılaya bilmirlər və problemlər yaşanır. Gərək cütlüklər bir-birini 3-4 il tanısınlar. Ümumiyyətlə, xanım ali savadlı olmalıdır. Ali savad istər-istəməz ailənin dağılmasının qarşısını alır. Sözlə nəyisə həll etmək olar. İntellekt, dünyagörüşü çoxdursa, o ailə heç zaman dağılmaz".

**Şəhər sakini Mehriban Şahin:** "Boşanmaların əsas səbəbi yoxsulluq, pulsuzluq, maddi sıxıntılardır. Məncə, hər kəs öz ayağının üstündə dayansa, bir-birinə dəstək olsa, boşananlar olmaz. Azərbaycanda belə bir məntiq, deyim var ki, qadın evdə oturmalıdır, kişi isə işləməlidir. Məncə, qadın da, kişi də eyni səviyyədə olsa, daha yaxşı olar. Çünki bir-birinə dəstək olsalar, maddi cəhətdən də sıxıntı yaşamazlar, bir-birinə də hörmət edərlər. Azərbaycanda işsizlik çox böyük problemdir. Hara gedirsənsə, ingilis dili tələb edirlər. İndi gənclər ingilis dilini bilir, amma mənim 48 yaşım var. Bu yaşdan sonra necə bu dili öyrənim. Ona görə də, belə problemlər



yaranır. Keçmişdəki ailə modeli ilə indiki arasında çox fərq var. Keçmişdə hər qadın evdə oturar, uşağı ilə məşğul olardı, amma indiki zamanda gəlinlər, qaynanalar qarşı-qarşıya dayanırlar. Yola getmirlər. Gənc xanımlar da təbii ki, gəzmək, geyinmək, yaşamaq istəyirlər. Maddi vəziyyətə görə də çatdıra bilmirlər. Nəticədə bu söhbətlər yaranır".

**"Ulduz" jurnalının poeziya şöbəsinin müdiri şair Bayandur Sevgin:** "Boşanmaların əsas səbəbi odur ki, televiziyalarda verilişlərdə üç arvad boşayanı çağırırlar ki, gəl boşananlara məsləhət ver. Hamısı buna görədir. Mənim 66 yaşım var. Adam bir dəfə evlənər. İndiki zamanda sosial şəbəkələr, müxtəlif televiziya kanalları, verilişlərə baxıb hamı elə başa düşür ki, belə etsələr, yaxşı həyat yaşayarlar. Amma bilmirlər ki, belə insanların sonu yoxdur. Allah özü övladlarımıza kömək olsun, ağıl versin. İnsan bir dəfə evlənməlidir. Elə adamlar tanıyıram ki, üç dəfə evlənib, hərəsindən bir uşağı var, bilmir ki, hansına baxsın. Uşağı atmaq olmur, ana da uşağı vermir. Bu cür həyat yaşayırlar. Həyata bir dəfə gəlmişik, bir dəfəni də yaxşı yaşamalıyıq. Mənə elə gəlir ki, indiki vaxtda valideynlərin heç bir önəmi yoxdur. Çünki uşaqlar valideynləri eşitmirlər.



Məsələn, mənim iki qızım, bir oğlum var. Onlar ailə quranda fikirlərini dinləmişəm. Yəni valideyn övladla dost olmalıdır. Məcbur kiməsə verəndə sonunda da boşanma qaçılmaz olur".

**Şəhər sakini Aynur Miriyeva:** "Boşanmaların səbəbi çoxdur. Əsasən də, maddi problemlər və bir-birini anlamamaq burada rol oynayır. Biz səbrli idik, dözürdük, hər kəsdə problem ola bilər, hamının nöqsanı ola bilər. Amma biz onları keçirdik. İndiki gənclər keçmir, daha tələbkardırlar. Gənclər aqressivdir.



Qayğılar, gündəlik problemlərin çoxluğu da səbəblərdəndir. Daha çox qadınlar boşanmağa meyillidir. Çünki ailədə qadınlar aparıcıdır, ailəni quran da, qoruyan da qadındır. Yük daha çox qadınların üzərinə düşür. Həm evdə işləyirik, həm də işdə".

**Şəhər sakini Fazil Rəhimov:** "Boşanmamışdan əvvəl dəqiq düşünmək lazımdır. Cinsiyyət fərqi yoxdur, hər iki tərəfdə səhv ola bilər. Qarşı tərəfi anla-



maq lazımdır. Ağsaqqal və ağbirçək kimi yaşlı nəsil bu problemin həllində əsas rol oynamalıdır. Gənclərin yaşlıları dinləməsini məsləhət görürəm".

***Söylü Ağazadə***

## Ukraynalı nazir: "COP29-da 300 milyard dollarlıq yeni iqlim hədəfi barədə razılığa gəlinməsi strateji sazişdir"

BMT-nin iqlim dəyişikliyi üzrə COP29 konfransında 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün 300 milyard dollarlıq yeni iqlim hədəfi barədə razılığa gəlinməsi bütün dünya ölkələri, xüsusən də Ukrayna üçün zəngin və kifayət qədər mürəkkəb strateji sazişdir. Bu barədə Ukraynanın ətraf mühitin mühafizəsi və təbii sərvətlər naziri Svetlana Qrinçuk nazirliyin saytına açıqlamasında bildirib.



"Paris sazişinin 6-cı maddəsi - bazar mexanizmləri ilə bağlı qərarlar paketi qəbul edilib. Kənd təsərrüfatı üzrə iş proqramı davam etdirilib və yeni layihələrin təqdim edilməsi üçün portal yaradılıb. Qlobal uyğunlaşma məqsədinə nail olmaq üçün hazırlıq istiqamətində addımlar atılıb", - deyə nazir əlavə edib.

Qrinçuk nəticələrin Ukrayna üçün nə demək olduğunu da bildirib: "Biz iqlim planlarımızı və layihələrimizi həyata keçirmək üçün vəsait alacağıq. Biz əlavə 6-cı maddəyə investisiya cəlb edə, həmçinin yaşıl enerji, yaşıl bərpa və iqlim dəyişikliyinə uyğunlaşma üçün beynəlxalq maliyyə institutlarının maliyyələşdirilməsində iştirak edə bilərik".

Nazirin sözlərinə görə, Ukrayna pavilyonu müharibə və dağıntılara baxmayaraq, beynəlxalq tərəfdaşları yaşıl bərpaya cəlb etmək missiyasını yerinə yetirən Bakıda işin mühüm elementi oldu. "Bu, COP29 başa çatdıqdan sonra belə, Ukrayna ətrafında dünyanın birliyinin simvolu olacaq", - deyə nazir əlavə edib.

## "Azərbaycan ictimaiyyəti bilir ki, həqiqət nədən ibarətdir"

"Avropada yaşayan bəzi azərbaycanlı bloggerlərin və şər-böhtan müxalifəti üzvlərinin ölkəmizə qarşı apardığı düşmənçilik siyasəti



açıq-aşkar özünü göstərir. Bu proses Qərb və Avropa dairələrinin ölkəmizə bəslədiyi düşmənçilikdən irəli gəlir". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Sahil Kərimli deyib.

O bildirib ki, son dövrlərdə Qərbin eyni mərkəzdən idarə olunan dairələrinin Azərbaycana qarşı bu cür düşmənçilik siyasəti həyata keçirməsinin şahidi olmuşuq: "Bəzi özünü blogger adlandıran, əslində isə şər-böhtan atmaqla məşğul olan şəxslərin maliyyələşdirilməsi, onların xüsusi istiqamət üzrə Azərbaycana qarşı yönəldilməsi prosesi uzun müddətdir ki, davam edir. Bu xüsusi hiddət doğuran hallardan biridir. Çünki Azərbaycan ictimaiyyətində, cəmiyyətində də ölkəmizə qarşı bu cür neqativ hallar daim hiddətlə qarşılanır. Böyük təəssüf hissi ilə vurğulamaq lazımdır ki, özünü blogger adlandıran həmin şəxslər Avropa dairələrinə sığınaraq, onların diqtəsi ilə qarayaxma kampaniyaları həyata keçirirlər. Amma sağlam düşüncəli cəmiyyət, Azərbaycan ictimaiyyətinin böyük bir hissəsi yaxşı bilir ki, həqiqət nədən ibarətdir".

***Səbinə Hüseynli***

# ICESCO-nun Baş direktoru: "Azərbaycan COP29-da yüksək təşkilatçılıq bacarığını bir daha nümayiş etdirdi"

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən tədbirlərin böyük uğuru Azərbaycan Respublikasının intellektual və siyasi bacarıqlarını, texniki və logistik imkanlarını hər kəsə göstərdi və dünyanı heyran etdi. Konfransın işində fəal iştirak edən beynəlxalq qurumlar arasında İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan ICESCO da var idi. Təşkilatın nümayəndə heyətinə Baş direktor Salim bin Məhəmməd əl-Malik rəhbərlik edirdi. Salim bin Məhəmməd əl-Malik AZƏRTAC-a müsahibəsində ICESCO-nun beynəlxalq iqlim tədbirində iştirakından danışıb, təəssüratlarını bölüşüb:

*- ICESCO-nun COP29-da iştirakı barədə nə deyərdiniz?*

- Təşkilatımız COP29-da yüksək səviyyədə iştirak etdi. Mavi Zonada bizim xüsusi pavilyonumuz qurulmuşdu. Bilirsiniz ki, Mavi Zona BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəfləri, eləcə də dövlətlərin rəsmi nümayəndə heyətləri, təsdiq olunmuş nəzarətçi statusunda olan nümayəndə heyətləri üçün nəzərdə tutulmuşdu. ICESCO da bu statusu 2023-cü ilin dekabrında alıb. Pavilyonumuzda 50-yə yaxın tədbir keçirildi, iqlim dəyişikliklərinin torpağa, mədəniyyətə və başqa sahələrə təsirləri müzakirə olundu. Bu tədbirlərdə ətraf mühitin qorunması və iqlim dəyişiklikləri üzrə ekspertlər yüksək səviyyədə iştirak etdilər.

Eyni zamanda, ICESCO konfrans çərçivəsində bir sıra təşəbbüs və mühüm strategiya irəli sürdü. Bunlardan biri "Yaşıl innovatorlar ictimai birliyi" təşəbbüsüdür. Əsas hədəf iqlim davamlılığı sahəsində ən yaxşı təcrübələrin qeydə alınması və stimullaşdırılması üçün iqlim fəaliyyətlərinin sürətləndirilməsidir. Həmçinin su resurslarının



davamlılığı sahəsində əməkdaşlıq üzrə ICESCO-nun yeni platformasının təsis edilməsi, müasir təcrübələrin kənd təsərrüfatına inteqrasiyası və davamlı inkişaf üzrə təşkilatın strategiyasının elan edilməsi, İslam dünyasında təhsilin yaşıllaşdırılması üçün ICESCO Çərçivəsinin fəaliyyətə başlaması, eləcə də təşkilatın pavilyonunda Şuşanın 2024-cü ildə İslam dünyasının mədəniyyət paytaxtı elan olunması tədbirləri çərçivəsində hazırlanmış "Şuşa: Azərbaycanın incisi" kitabının ərəb dilində nəşrinin təqdimat mərasiminin keçirilməsi mühüm hadisələrdən oldu.

Konfrans çərçivəsində, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşmək şərəfinə də nail oldum. Görüşdə əlaqələrimizin daha da möhkəmləndirəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Təşkilatın nümayəndə heyəti Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti və Kosmik Liderlərin sammiti başda olmaqla, bir sıra yüksəksəviyyəli sammitlərdə, görüşlərdə və panel iclaslarında iştirak etdi. Həmçinin təşkilat ixtisas sahələri üzrə nazirlər və yüksəksəviyyəli rəsmilərlə ikitərəfli görüşlər keçirdi. Bu görüşlərdə ICESCO və həmin qurumlar arasında iqlim fəaliyyəti sahəsində əməkdaşlıq müzakirə olundu. ICESCO-nun iştirakı çərçivəsində Azərbaycan Respublikasının bir neçə qurumu ilə, o cümlədən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın rəhbərlik etdiyi IDEA - Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq İctimai Birliyi, eləcə də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə ikitərəfli sazişlər imzalandı. Azərbaycan Respublikasına davamlı təşkilata dəstəyinə, ICESCO-nun COP29-da xüsusi pavilyonla iştirakına imkan yaratdığına və bu iştirakı dəstəklədiyinə görə bir daha dərin təşəkkür və minnətdarlığımı bildirirəm.

*- Bəs, bu qlobal əhəmiyyətli tədbirin təşkilini necə qiymətləndirirsiniz?*

- Azərbaycan dünyanın iqlim və ekoloji dəyişikliklərlə mübarizə sahəsində ən nüfuzlu tədbiri sayılan Tərəflər Konfransına (COP29) ev sahibliyi edərək və təşkilatçılığı uğurla həyata keçirərək, böyük nailiyyətə imza atdı. Konfrans günlərində Azərbaycan yüksək təşkilatçılıq bacarığını, insan kapitalını və müasir texnoloji potensialını bir daha nümayiş etdirdi. Qeyd etmək istərdim ki, COP29-da 4500-dən çox gəncin könüllü kimi iştirak etməsi də beynəlxalq tədbirin yüksək səviyyədə keçirilməsinə öz töhfəsini verdi. Azərbaycanın beynəlxalq aləmdəki nüfuzlu mövqeyi onu son illərdə yüksəksəviyyəli konfranslar və beynəlxalq tədbirlər üçün əsas məkanlardan birinə çevirib. Bakının bu mötəbər tədbirə uğurla ev sahibliyi etməsi İslam ölkələrinin bilik və təcrübəsinin daha da zənginləşməsinə öz töhfəsini verəcək. Sonda Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya COP29 konfransının uğurla keçməsi münasibətilə səmimi təbriklərimi çatdırmaq istəyirəm. Bakı dünyanın daha təhlükəsiz, təşkilatlanmış və inkişaf etmiş paytaxtlarından biri kimi iqlim fəaliyyəti sahəsində aparıcı beynəlxalq iştirakçıları bir araya gətirən belə qlobal tədbirə ev sahibliyi etməyə layiq olduğunu bir daha sübut etdi.

# "Co Bayden administrasiyası Ermənistana daha isti münasibət bəsləyir"

"Dünyanın bir çox nöqtələrində, o cümlədən bizim bölgədə Cənubi Qafqaz regionunda dünyanın ən böyük dövlətləri bir istiqamətdə Amerika Birləşmiş Ştatları və ona bağlı olan Qərbin kollektiv dövlətləri, digər istiqamətdə isə Rusiya arasında çox gərgin, amansız mübarizə gedir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elçin Abdullayev deyib. O bildirib ki, bu mübarizənin fonunda hansı gücün qalib gələcəyi və hansı gücün digər dövlətləri öz istəklərinə tabe edəcəyi məsələsi gündəmdədir: "Bu gün Co Bayden administrasiyasının Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına dair etdiyi canfəşanlıq əslində nə Azərbaycanı, nə də Ermənistanı düşündükləri üçün deyil. Bu, mənə görə Qərbin bu sülh müqaviləsinə vasitəçiliyi ilə nail olması uğrunda aparılan mübarizədir. Əgər Qərb öz vasitəçiliyini ortaya qoyub Ermənistanla Azərbaycan arasında sülh müqaviləsini imzalamış olsa, C.Bayden administrasiyası buna nail olmuş olsa, o zaman Rusiyanın bölgədə nüfuzuna çox ciddi zərbə vurmuş olacaq. Bölgəyə qonşu olan və böyük dövlətin İrəvanla Bakı arasında sülh sazişinə nail ola bilməməsi, əvəzində isə Vaşinqtonun bu missiyanı öz üzərinə götürüb həyata keçirməsi ondan xəbər verəcək ki, bu gün Qərb dövlətləri artıq Qafqazda dominantlıq edir, Qafqaza təsir imkanlarını artırır. Bu baxımdan düşünürəm ki, C.Bayden administrasiyasının məlum canfəşanlığı məhz buna xidmət edir. Amma özünün şəxsi istəyinə bağlı olaraq Nobel mükafatı almaq istəməsinə gəldikdə elə bir cihazım yoxdur ki, istəyini yoxlaya bilim. Hər halda o da mümkün variantlardan biridir. Əgər sülhə nail olunarsa, özünün Nobel mükafatı üçün namizədliyini irəli sürsün. Amma burada əsas məqsəd Rusiyanın deyil, məhz Amerikanın təşəbbüsü ələ almasından gedir. Eyni zamanda Rusiya da buna çalışır. Rusiya da istəyir ki, bu məsələyə özü birbaşa əl qoysun. Bununla Moskvanın vasitəsilə bu missiya baş tutsun.



Hal-hazırkı məqamda bu missiya həyata keçirilə bilər? Düşünürəm ki, Amerika Birləşmiş Ştatları, eyni zamanda Rusiya bu iki dövlət arasında sülh müqaviləsinin imzalanma prosesini indiki zamanda həyata keçirə bilməyəcəklər. Çünki Amerika Birləşmiş Ştatlarının bu gün Ermənistanla Azərbaycan arasında baxış bucağına baxanda kifayət qədər fərq görürük. Vaşinqton Ermənistana daha isti münasibət bəsləyir. Azərbaycana isə ögey münasibət bəsləyir. Ən azı COP29 bunu sübut etdi ki, Qərb dövlətləri Azərbaycan dövlətinə qısqanclıqla yanaşırlar."

**Söylü Ağazadə**



# Onlar hansı aparıcını xatırlayacaq?..

**MƏTANƏT**

Bir neçə il əvvələ qədər televiziya məkanının məşhur aparıcı-diktoru olan, hər birimizin qəlbində munis duyğularla yaşayan Ofelya Sənani haqqında dünən bir yazı oxudum. Yazını oxuya-oxuya bu fikirləri də ağlımdan keçirdim: bizim televiziya məkanının Ofeliya Sənani, Roza Tağıyeva, Həqiqət Əsgərzadə, Şərqiyyə Hüseynova, Tamilla Ələkbərova, Nərgiz Cəlilova, Nailə İslamzadə, Həmidə Ömərova, Ceyran Rəhimova, Rafiq Hüseynov, Sabir Ələsgərov və sair aparıcı-diktorları olub. Adlarını çəkdiyim və çəkmədiyim həmin aparıcı və diktorların hər birini bu gün istedadı, qabiliyyəti, bacarığı, bir də gözəl diksiyası, geyimi, oturuşu-duruşu, bir sözlə, xanımları əsl azərbaycanlı xanım kimi, kişiləri əsl azərbycanlı bəy kimi xatırlayırıq. Və eyni zamanda onların hər birini həm də saygı ilə yada salır, haqlarında nümunəvi insan kimi danışırıq.

Yazının sonunda isə özümə belə bir sual verdim: bəs sabah necə, bizim övladlarımız hansı aparıcıları xatırlayacaq? Bu gün televiziya məkanının aparıcı-diktorlarından hansı yuxarıda adlarını sadaladıqlarım qədər yaddaşlara köçə bilib? Bu gün Ofeliya, Roza, Həqiqət, Tamilla, Şərqiyyə, Nailə, Nərgiz və sair xanımların adları çəkiləndə gözlər önünə gözəl, sənətinin sahibi, eyni zamanda el dili ilə desək, oturuşmuş, yerində olan xanımlar gəlir. Onların həm səlis diktorluğu, yeri gələndə öz təşəbbüsləri ilə yaradılan, efirləri bəzəyən verilişləri, yeri gələndə filmlərimizdəki rollarının hər biri nümunəvi, yaddaqalandır. Bir sözlə, onlar sanki hər işdə əzmkar, işinin sahibi, gözəllik yarada bilən insanlar idi.

Bu gün isə biz orta yaş qrupu televiziya məkanında yaddaqalan hansı aparıcını xatırlayırıq, deyə bilərsiniz? Deyə bilmirsiniz? Deməli, bizim övladlarımız heç onlardan birinin belə adını çəkə bilməyəcək gələcəkdə, nəinki xatırlamaq...

Nə üçün belədir? Nə üçün dünənkilər bu qədər yaddaşlara köçə bilib. Bugünkülərin isə heç adını belə bilmirik?

Televiziya elə bir məkandır ki, onun insana təsiri qədər digər biz vasitə yoxdur: həm müsbət, həm mənfi mənada. Elə bu səbəbdən də televiziya necədirsə, özünü necə təkmilləşdirir, işini necə qurursa, elə də yaddaşlarda qalır. Bunun başqa yolu yoxdur. Deməli, belə bir qənaətə gəlmək olur ki, ötən illərdə televiziya işi ölkəmizdə yaxşı şəkildə qurulmuşdu, orada çalışanlar da seçilib işə qəbul edilmişdi. Onlar kişili-qadınlı, gəncli-yaşlı hər biri öz yerində idi. Hər biri öz yaşının sanki ağası idi. O yaşın haqqını o qədər gözəl verirdi ki...

Lakin bu gün televiziya məkanını zəbt edən onlarla qadın və kişi aparıcı var ki, onların əksəriyyəti özünü efirdə apara bilmir. Qonaqları ələ salır, onların heysiyyatı ilə oynayır, "like" qazanmaq üçün min yox, min bir oyundan çıxır. Əyni-başı heç də bizim mentalitetə uyğun olmayan aparıcılar var. Verilişdə qalmaqal yaradıb auditoriya yığmaq məqsədli, müzakirə olunan məsələni hər vəchlə mental dəyərlərimizə zidd tərəfə sürükləyən, bəzən ailə, bəzən milli, bəzən mənəvi dəyərlərimizi hər kəsin gözü qarşısındaca-efirdə baltalayan, bundan əsla narahat olmayan, yeri gələndə özünü sözün altından çıxaran, özünə haqq qazandıran, lakin əslində çox haqsız aparıcılar var.

Qonaqlardan çox özü danışan, qonağın sözünü ağzında yarımçıq qoyub bir üzr istəməyi bacarmayan aparıcılarımız var. Hələ onlardan xalqın sərvəti olan televiziya efirini gəlir mənbəyinə çevirənlər, əvvəlcədən hazırlanmış ssenari ilə səhnəciklər quran, özünü itənləri tapan, dağılan ailələri bir yerə toplayan, küsülüləri barışdıran "müdrik" hesab edənlər də var. Əslində isə onların özü insanların münasibətlərin ictimailəşməsinin, həllinin müşkülə çevrilməsinin müəllifləridir.

Beləliklə, bax bu mühitdə, bu televiziya məkanında bizim övladlarımız sabah kimi xatırlayacaq? Biz Ofeyla, Roza, Həqiqət, Şərqiyyə Məlahət, Tamilla, Həmidə, Ceyran xanımları, Rafiq, Sabir və sair kimi apaıcı-diktor kimi uzun illər fəaliyyət göstərən bəyləri bu gün qururla yada salırıq, haqlarında xoş xatirələrlə danışırıq.

Bəs sabah, övladlarımız aparıcı-diktor olaraq kimi xatırlayacaq? Maraqlıdır, deyilmi?..

# Qarabağ və Şərqi Zəngəzurun turizm potensialı

Şərqi Zəngəzur və Qarabağda iqtisadiyyatının dirçəldilməsi yaxın gələcəkdə bu diyarın yenidən bütün Cənubi Qafqazın inkişaf edən mədəniyyət və turizm mərkəzlərindən olacağını deməyə əsas verir. Əlbəttə ki, Azərbaycan inkişaf etmiş turizm ölkəsidir. Ölkəmizin flora və faunası, zəngin tarixi mədəniyyət abidələri Odlar diyarını xarici turistlər üçün cəlbedici edib. Azərbaycanın dinamik inkişafı, ölkəmizdəki əsaslı dəyişikliklər, respublikamızın siyasi-iqtisadi və mədəni mərkəz, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi çıxış etməsi ölkəmizin dünyada olan imicini daha da yüksəldib. Bütün sahələrdə həyata keçirilən layihələr Azərbaycanın hər bir bölgəsində turizm üçün geniş imkanlar açıb. Azərbaycanın hər bir bölgəsi turizm üçün yararlıdır. 30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımızın da turizm potensialı genişdir. Zəngin Qarabağ torpağı istənilən əcnəbi turistin marağından kənar qala bilməz. Məlumdur ki, tarixi kökü olmayan və ərazinin tarixi ilə heç bir bağlılığı olmayan ermənilər 30 ilə yaxın işğal dövründə qəddarcasına Qarabağın və ətraf rayonların təbii landşaftı, tarixi-memarlıq abidələri, tranzit-kommunikasiya şəbəkəsi dağıdıb, bir sözlə regionun turizm infrastrukturunu tamamilə məhv ediblər. Talançılıq missiyasını reallaşdıran Ermənistan "sivilizasiyalı" dövlət kimi dünya ölkələri tərəfindən qəbul olunmuş konvesiya, qərar, bəyanat və qətnamələrə əməl etməyib. İşğaldan azad olunmuş Şuşa, Ağdam, Füzuli, Cəbrayıl kimi rayonların turizm potensialı böyükdür. Bu ərazilərdə aparılan abadlıq-quruculuq işləri turistlərin diqqətini həmin məkanda olan flora və faunaya, mədəniyyət abidələrinə cəm edəcək.









Qarabağın işğaldan əvvəlki dövrdə fəaliyyət göstərmiş mədəni və səhiyyə obyektlərini yenidən dirçəltmək də önəmlidir. Şuşanın istirahət evləri, məktəblilərin yay tətilində dincəlməsini təmin edən düşərgələr də turizmin inkişafında önəmli faktorardır. Bu turizm və müalicə obyektləri Azərbaycan xalqının milli-tarixi dəyərlərini dünyaya tanıtmaqla yanaşı dövlət büdcəsinə gəlir gətirəcəkdir.

Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və s. daş yaddaşımızdır. Ermənilərin qurbanına çevrilən abidələrimizin artıq bərpa və təmir edilməsinə başlanılıb və bir neçəsində aparılan işlər yekunlaşıb. İlk insan məskənlərindən olmuş məşhur Azıx mağarası, Qaraköpək, Üzərliktəpə kurqanları, Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Mir Möhsün Nəvvabın ev muzeyi və s. çoxsaylı turistlərin ziyarətgahına çevriləcək. Bu onu deməyə əsas verir ki, yaxın zamanlarda Azərbaycanın turizm məkanlarının coğrafiyası daha da genişlənəcəkdir.

Öz təbii sərvətləri ilə seçilən torpaqlarımızın səfalı və müalicəvi əhəmiyyət daşıyan yerləri, flora və faunasının başqa bir ab-havası var. Kəlbəcər rayonu ərazisindəki İstisu mineral suları, Şuşanın Cıdır düzü və saymaqla bitib-tükənməyən nümunələri böyük maraq doğurur. Dövlət başçısı İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək.

Bildiyimiz kimi, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Qarabağ" hoteli istifadəyə verildi. 1980-cı ildə inşa edilən hotelin binası 1992-ci ilin mayında Şuşa şəhərinin işğalı nəticəsində öz fəaliyyətini dayandırıb və baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşmüşdü. Şuşa şəhəri müzəffər Azərbaycan Ordusunun şanlı Zəfəri nəticəsində Ermənistanın işğalından azad edildikdən sonra 2021-ci ildə Prezident İlham Əliyevin tapşırığına əsasən, hoteldə təmir-bərpa və yenidənqurma işləri həyata keçirilməyə başlandı. Müasir səviyyəyə çatdırılan hoteldə Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb. Burada müxtəlif kateqoriyalı otaqlar var. Binada restoran və bar qonaqların ixtiyarına verilib. Oteldə işgüzar görüşlərin və tədbirlərin keçirilməsi üçün konfrans otağı yaradılıb.

## DAĞINTIYA NİSBƏTƏN AZ MƏRUZ QALAN YEGANƏ TİKİLİ

İşğaldan azad olunan ərazilərimiz sırasında Ağdam da var ki, 27 ildən sonra günəş şüaları ilə nurlanmış bu şəhər yeni dövrünə qovuşub. 20 noyabr 2020-ci il tarixində Ağdam rayonu Azərbaycan Respublikasına qaytarıldı. Rayonun ərazisində qədim tarixə malik yüzlərlə memarlıq və incəsənət abidələri vardır. Buradakı tarixi memarlıq abidələri, yaşayış məskənləri, sərdabələr, kurqanlar və s. müxtəlif tarixi dövrləri əks etdirən nadir nümunələrdir. Rayonun onlarla tarixi yaşayış məskənləri eneolit dövründən günümüzə kimi gəlib çatmışdır. Buranın hər bir daşı tarixi dövrləri əhatə edir və əlbəttə ki, turistlər üçün cəlbedicidir. Bu sırada Ağdam Cümə məscidin də xüsusi yeri var. Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid Ağdamın işğal altında olduğu müddətdə şəhərdə ermənilər tərəfindən dağıntıya nisbətən az məruz qalan yeganə tikilidir. İşğaldan azad olunan ərazilərdə tarixi-mədəni və dini abidələrin bərpası layihələri çərçivəsində Ağdam Cümə məscidindəki işlər yekunlaşıb və məscid əvvəlki görkəminə qaytarılıb. Torpaqlarımız işğaldan azad olunduqdan sonra 2022-ci ilin martından Ağdam Cümə məscidinin bərpasına başlanılmışdı. Restavrasiya prosesinin qüsursuz yerinə yetirilməsi məqsədilə ilkin tikinti zamanı istifadə olunan materiallar avstriyalı ekspertlər tərəfindən araşdırılıb. Ərazidəki dağıntılar aradan qaldırılıb, məscidin daxilində sütunların və kənar divarların yanında kəşfiyyat qazıntıları, giriş hissəsindəki tarixi daş döşəmənin üzə çıxarılması, tarixi və texniki tələblər əsasında müvafiq suvaq nümunələrinin və laboratoriya analizləri əsasında boya nümunələrinin yaradılması, sınıq günbəzin və tağların taxta konstruksiyalarla bərkidilməsi işləri yerinə yetirilib.

Qeyd edək ki, işğal dövründə - 2000-ci il mayın 9-da Ümummilli Lider Heydər Əliyevə təqdim olunmuş Ağdam Cümə məscidinə aid daş parçası da burada nümayiş etdirilir.

Damdakı günbəzlərin zədələnmiş suvağının aradan qaldırılması, günbəzlərin və anbarların əhəng suyu və əhəng qatı ilə gücləndirilməsi, divar tacının yenidən qurulması və uyğun təbii daşlarla doldurulması prosesi tamamlanıb. Məscidin içindəki daşlar, giriş qapısı bərpa olunub, fasadı tarixi görkəminə uyğun restavrasiya edilib.

## AĞDAM ÇÖRƏK MUZEYİ

Əlbəttə ki, Ağdamın turizm məkanlarından söz açarkən, Ağdam Çörək muzeyini xüsusi olaraq qeyd etməliyik. Azərbaycanın Ağdam şəhərində yaradılan Çörək muzeyi 25 noyabr 1983-cü ildə ilk ziyarətçilərini qəbul etmişdi. Muzeydə 2800-ə yaxın eksponat vardı. Qarabağ müharibəsində Ermənistan Silahlı Qüvvələrinin hücumları nəticəsində muzeyə iki dəfə mərmi düşmüşdü. İlk atılan mərmi üçüncü sərgi zalına düşsə də, partlamamışdı. Digər mərmi isə 1992-ci ilin avqust ayının 12-də Əsgəran rayonunun Xanabad və Naxçıvanik kəndi istiqamətindən atılan zaman muzeyə düşərək, muzeyi tamamilə məhv etmişdir. Nəticədə muzeydə olan 1500-dək eksponat yanaraq məhv olmuşdur. Onu da vurğulamaq yerinə düşər ki, 1980-cı illərdə Ağdamda keçirilən "Natəvan" qızlar bayramı, "Xarı Bülbül" beynəlxalq festivalı məhz muzeyə baxışla başlanarmış. Hər daşı bir tarix olan Ağdam şəhəri öz keçmiş imicini yenidən özünə qaytarır və Azərbaycanın turizm bölgəsi kimi Ağdamın da bu sırada öz yeri və payı olacaqdır.

## TURİSTLƏRİN ƏN ÇOX MARAQ GÖSTƏRƏCƏKLƏRİ MƏKAN

İstirahət üçün böyük məkan olan və ekoloji cəhətdən əhəmiyyət daşıyan "Daş-başı" və "Leşkar" meşələrində ermənilərin yanğın törətmələri də hər kəsin xatirindədir. "Leşkar" meşə sahəsində isə yararlı ağaclar tam qırılıb. Xatırladaq ki, Laçın dövlət yasaqlığında cüyür, qaya keçisi, çöl donuzu, ayı və s. quşlardan isə turac, kəklik və s. məskunlaşmışdır. Burada 1989-cu ildə aparılan yoxlanmada: dağ-keçisi (bezoar keçisi) 96 baş, qaban 360 baş, cüyür 320 baş, ayı 110 baş, canavar, porzuq, dələ və s. heyvanlar, quşlardan qırqovul 200, kəklik 1500 məskunlaşmışdır. Qubadlı dövlət yasaqlığında isə işğaldan əvvəl müəyyən olmuşdur ki, burada 101 baş çöl donuzu, 21 baş qonur ayı, 35 baş çüyür, 420 baş dovşan, 25 baş canavar, 310 baş çaqqal, 75 baş porsuq vardır. Quşlardan ən çox kəklik yayılıb. Qırqovul, turac, bildirçin, göyərçin bu yerlərin daimi sakinlərindəndirlər. Belə bir səfalı yerlərə malik, turizmin inkişafına böyük təkan olacaq yerlərimizin ermənilərin əlində 30 ilə yaxın qalması Azərbaycanın iqtisadi inkişafına, onun turizm imkanlarının genişlənməsinə zərbə vurmuşdur. İşğal dövründə ermənilər bu xəzinədən vəhşicəsinə istifadə etmişdirlər. Cənnətməkan hesab olunan ərazilərimizi xarabalığa çevirən ermənlər yaxın bir zamanda buranın əvvəlkindən də gözəl bir məkan olacağının şahidi olacaqlar. Öz milli xüsusiyyət və tələbatlar çərçivəsində bu məkanlarda ab-hava yaradaraq Qarabağı turistlərin ən çox maraq göstərdiyi bir mərkəzə çevirəcəyik.

Son illər Azərbaycanda turizmin inkişafı istiqamətində böyük işlər görülsə də, ölkəmizin ən böyük turizm potensialına malik Qarabağ bölgəsi işğal altında olduğundan bu proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan bu diyar Müzəffər Ali Baş Komandanın qətiyyəti və Ordumuzun rəşadəti sayəsində artıq düşmən tapdağından azad edilib.

# Bürcə görə evlilik qərarı almaq nə dərəcədə doğrudur?

*EKSPERT İZAH ETDİ*



”Kainatda milyardlarla qalaktikalarda milyardlarla ulduzlar var. Əgər biz hər hansı ulduzun, yaxud bürcün milyardlarla insanın taleyinə təsirini düşünsək, astronomik bir rəqəm alınacaq”. Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.

O bildirib ki, hələ ki, bunu hesablayan insan zəkası və süni intellekt yoxdur: ”İnsanlar sahəvi elmlərə fikir vermədikcə hələ də xurafata, yalana, nağıla, dini rəvayətlərə, bürclərə inandıqlarına görə öz talelərini yaşayırlar. Əgər siz qarşıdakı partnyorunuza sevgi, hörmət bəsləyirsinizsə, eyni şeyi özünüzə qarşı da ala bilərsiniz. Əks tərəf ən pis adam olsa belə, göndərdiyiniz dalğalara uyğun ondan dalğalar ala bilərsiniz. Əgər siz məqsədli şəkildə bu münasibətlərə girirsinizsə, bir azdan münasibətlər soyuyacaq, əlaqələri kəsmək üçün bəhanələr gətirəcəksiniz. ”Bürcümüz üst-üstə düşmür, məni atam verdi, məni anam evləndirdi” kimi bəhanələr ortaya qoyulacaq. Milyardlarla ildir ki, bəşəriyyət müxtəlif cəmiyyətlərdə özünəməxsus milli-mənəvi, psixoloji, sosial, məişət və ictimai dəyərlər sistemi yaradıb ki, insanlarda bu bəhanənin qarşısını alsınlar. Dinin də yaranması, elmi baxışların, ailə və psixoanalitik düşüncə tərzinin də formalaşması insanlara xidmət edir. Gərginliyi azaltmaq üçün fərdlər arasında münasibətləri sivilləşdirmək, bir-birinə hörmət, məşhur qızıl qanunda göstərildiyi kimi ”Sənin hüquq və azadlıqların, digərlərinin hüquq və azadlıqlarının sərhədində kəsişir”. Əgər qızıl prinsipləri bilsək, həyatımıza tətbiq etsək, bu qədər gərginlik, ailə faciələri olmaz. Təəssüflər olsun ki, təcrübə mənə eminliklə göstərir ki, tərəflər bir-biri ilə maddi sərvətləri bölüşə bilmədiyinə görə müxtəlif bəhanələrlə boşanırlar. Boşanmalar zamanı da müxtəlif fərziyyələr irəli sürürlər. Bəzən bu fərziyyələr peşəkarları belə aldada bilir. Boşanmanın tərəfdarı olmasaq da, əgər ailə münasibətlərində nöqtə qoyulubsa, bunu rəsmiləşdirib sivil formada boşanmaya qədər getmək olar. Azərbaycanda illər boyu nikah mədəniyyəti formalaşdırılsa da, hələ də boşanma mədəniyyəti formalaşmayıb. Hər bir şəxs artıq öz haqlarını gözəl bilir. Dövlətin, konstitusiyanın onlara verdiyi imkanlar daxilində onu qorumağa çalışırlar. Qərb cəmiyyətinin 50-60-cı illərdə keçdiyini biz indi keçirik. Ona görə də, bizə ağrılıdır. Qərb cəmiyyətində olan problemlərin həlli yollarını isə öyrənmək istəmirik.



Ötən əsrin 60-70-ci illərində Avropada, Amerikada hərəkatlar baş qaldırdı. Onlar həddindən artıq azadlıq istədilər. Cəmiyyətin əsas dayaqlarından biri olan ailə institutunu dağıtdılar. Fərdin şəxsiyyət kimi formalaşmasının böhran içində olduğunu gördülər. Ona görə də, onlar dərk etdilər ki, bu cür şəxslər cəmiyyət üçün itir. Fizioloji olaraq həmin insanlar qısır oldular, dünyaya uşaq gətirə bilmədilər. Mənəvi və şəxsiyyət olaraq keçirdikləri böhranlar Qərb cəmiyyətində də yeniliklər axtarmağa səbəb oldu”.

Onun sözlərinə görə, Azərbaycanda ailələr pul, sərvət üstündə dağılır: ”Eləcə də, ailədaxili münaqişələrin korlanması, tərəflərin bir-birinə hörmət etməməsi, məsuliyyətdən yan qaçmaq, sosial şəbəkələr, internet də səbəbdir. İnsanlar fikirləşdilər ki, tanınmış adamda olursa, onda niyə olmasın? Klub həyatını real ailə həyatına gətirən insanlar ailə institutunun məhvinə gətirib çıxardılar. Bununla bağlı dövlət çox normativ aktlar qəbul edib. Sağlamlıqla bağlı arayış, narkotik yoxlanışı ilə bağlı arayış tələb olunur. Təklif edirik ki, psixoloji sağlamlıqla bağlı arayış təklif olunsun ki, nikaha daxil olanlar ailə həyatının ciddiliyini qəbul etsinlər”.

***Söylü Ağazadə***

# “ABŞ və Aİ öhdəliklərdən qaçmağa çalışır”

*POLİTOLOQ AÇIQLADI*



”COP29 ərəfəsində ABŞ və Avropa İttifaqı özünü məhsuliyyətdən kənarda saxlamaq üçün bir çox cəhdlər edirdi. Bunun da əsas səbəbi Avropa İttifaqı və ABŞ-da böyük sənaye müəssisələri fəaliyyət göstərir və onlar ekologiyaya xeyli dərəcədə zərər vururlar”. Bu sözləri SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov deyib. O bildirib ki, iqlim maliyyələşməsi ilə bağlı öhdəliklərdən də ABŞ və Aİ qaçmağa çalışır: ”Onlar daha çox öz sənaye müəssisələrində məhsul istehsal etməyi düşünür və digər problemlərlə maraqlanmırlar. Bu baxımdan COP29 kimi qlobal tədbirin keçirilməsinin qarşısını almaq üçün süni maneələr yaradılması da müşahidə olunurdu. Xüsusilə vurğulamaq lazımdır ki, COP29 tədbiri çərçivəsində iqlim maliyyələşməsi ilə bağlı 300 milyard dollar ABŞ dolları həcmində məbləğin müəyyənləşdirilməsi tarixi nailiyyət hesab olunur. Burada inkişaf etmiş dövlətlərlə, inkişaf etməkdə olan dövlətlər arasında da ortaq razılıq əldə olundu. Bu da Bakının uğuru kimi qiymətləndirilməlidir.

Eyni zamanda C.Bayden adminstrasiyası yeni rəhbərliyə çox sadə problemlər yaratmaqla məşğuldurlar. Bu özünü müxtəlif sahələrdə göstərir. Bu mənada COP29-da da siyasi fikirlərin, ikili yanaşmanın şahidi olurduq. Azərbaycan isə çalışdı ki, həmrəyliyi formalaşdırsın. Bu xüsusda da iqlim maliyyəsi ilə bağlı ortaq nəticənin əldə olunması çox mühüm əhəmiyyətə malikdir”.

***Səbinə Hüseynli***



**Elçin Bayramlı**

# Gen məbədimizə təcavüz: Qlobal terrordan necə qorunmalı?

***Məlum olduğu kimi, uzun onillərdir ki, qlobal transkorporasiyalar dünyada təbii məhsulların sıradan çıxarılmasına, GMO məhsulların tətbiqinə çalışır, var gücləri ilə bu işi bütün ölkələrdə həyata keçirməyə cəhd edirlər. Lakin bir çox ölkələr öz ərzaq təhlükəsizliyini, qida təhlükəsizliyini qorumaqda israrlıdır və bununla bağlı işlər həyata çeirirlər. Azərbaycanın da belə bir potensialı var. Azərbaycanda bu toxumların və məhsulların kütləvi gətirilməsi ötən əsrin 90-cı illərindən başlayıb. Ölkəmizdə geni dəyişdirilmiş məhsulların istehsalı, idxalı və satışı bir neçə qanunla qadağandır. Lakin buna baxmayaraq satışda belə məhsullara çox rast gəlinir.***

Elmi araşdırmalara görə, geni dəyişdirilmiş məhsullar insanlar və bütün canlı aləm üçün təhlükəlidir. Bu məhsullar insanın gen strukturunu və psixologiyasını dəyişir, onun immunitetini ağır vəziyyətə salır, onu öz təbii bioloji vəziyyətindən çıxarır və çox qorxunc xəstəliklərə səbəb olur. Xərçəng xəstəliyinin ən böyük səbəblərindən biri də geni dəyişdirilmiş ərzaq məhsullarıdır.

GMO özünü 2-ci nəsildə daha faciəvi şəkildə büruzə verir. Genetik strukturu pozulmuş yeni nəsillərin immuniteti zəif olur, xəstəliklərə, viruslara davamlılığa aşağı düşür. Heyvanlar üzərində aparılan təcrübələr də bunu sübut edir.

Transgen məhsullar təkcə insanlar üçün yox, bütün canlılar, bütün təbiət üçün qorxunc təhlükədir. Belə ki, genetik tərkibi qarışdırılmış orqanizmlər torpaq fondunu məhv edir, onların əkildiyi torpaqlar təbii münbitliyini, faydalı mikroorqanizmləri itirir və sonra orada digər təbii məhsulların əkilməsi mümkün olmur. Heyvanlar da GMO yemlərdən qidalanaraq öz təbiiliyindən çıxır, xəstə bir yarımcan kütləyə çevrilir. Ən sadə misal kimi broyler toyuqlarını göstərmək kifayətdir. Təbii toyuqlarla onların fərqi göz qabağındadır. Biz onların ətini, yumurtasını yeyərkən də bu orqanizmləri qəbul etmiş oluruq. Üstəlik, güclü hormonal yemlərlə ildırım sürətilə böyüdülən bu toyuqlar insanın horman balansını dəyişir və bunun nəticəsi özünü çoxsaylı xəstəliklərdə aydın göstərir.

GMO texnologiyasının yarandığı və ilk tətbiq olunduğu ABŞ-da əhalinin sağlamlığının necə ağır vəziyyətə düşdüyü həmin ölkənin və BMT-nin statistikalarından aydın görünür. Ən pis xəstəliklər üzrə Amerika əhaliyə nisbətdə dünyada liderdir. Yalnız güclü və çox bahalı tibbi xidmətin sayəsində ağır faciənin qarşısını bir qədər ala bilirlər. Əksər amerikalılar həddən artıq şişmandır, əhalinin çoxu müxtəlif dərmanlar və antidepresantlarla yaşayır. GMO məhsulların geniş istifadə olunduğu digər ölkələrdə də eyni vəziyyətdir.

Bu məsələ həm də birbaşa milli təhlükəsizliyimizlə bağlıdır. Xalqımızın genefondunu məhv edə biləcək bu məhsullar təkcə fiziki yox həm də psixi xəstəliklərə yol açdığı məlumdur. İnsanın beynindəki hüceyrələr də qəbul etdiyi qidalarla formalaşır. Zaman keçdikcə çox sayda psixi xəstəliklər, psixoloji problemlər yaranır. İndi isə problemə dövlət təhlükəsizliyi tərəfindən baxaq. Dövlətimiz üçün strateji təhlükə belədir- GMO toxumlar reproduksiya verməediyindən öz təbii toxumlarını məhv edərək GMO toxumların əkininə keçən ölkələr hər il qlobal korporasiyalardan toxum almaq məcburiyyətində qalır. Nəticədə həmin dövlət bir qlobal şirkətdən tam asılı vəziyyətə düşür, faktiki müstəmləkəyə çevrilir. Çünki bu toxumların sahibi bir növ o ölkənin aqrar sektorunun, ərzaq məhsullarının sahibidir, bu səbəbdən o şirkət həmin dövlətə qarşı istənilən tələbi irəli sürə bilər, buna razı olmayanda isə sadəcə toxum ixracını dayandırar və ölkənin kənd təsərrüfatını çökdürə bilər.

Bundan başqa, qida təhlükəsizliyi təmin edilməyəndə əhali arasında xəstəliklər kəskin artır, viruslara müqavimət azalır. Nəticədə dövlət ağlagəlməz məbləğlərdə zərərə düşür, səhiyyə xərcləri kəskin artır, əlillərin və ağır xəstələrin sayının artması sosial yükünü artırır, cəmiyyətdə işləmədən müavinət alanların sayı artır.

Dünyanın əksər ölkələrində buna qarşı dövlət və ictimai təşkilatlar səviyyəsində mübarizə aparılır, bir çox ölkələrdə GMO məhsulların istehsalı, idxalı, satışı qadağan edilib. Əksər ölkələrdə buna qarşı ciddi ictimai müqavimət var.

Bizdə də dövlətimiz GMO məhsulları qadağan edən, yalnız ekoloji təmiz təbii məhsulların istehsalı, idxalı və satışına icazə verən bir neçə qanun qəbul edib. Ümumilikdə, GMO məhsullarla, təbii ərzaq məhsulları ilə bağlı ölkə rəhbərinin sərəncamları, qəbul olunmuş qanunlar çox müsbətdir. Lakin bəzi qlobal mərkəzlər bundan narahat olublar və ölkəmizdə bu qanunların dəyişdirilməsinə çalışırlar.

Azərbaycan təbiəti, vətənimizin yeraltı və yerüstü resursları bizim özümüzü təbii məhsullarla təmin etməyimiz üçün yetərli imkanlara malikdir. Bu potensialdan səmərəli istifadə etməklə, sağlam cəmiyyət, güclü dövlət yarada bilərik. Bunun üçün aqrar sektora diqqəti artırmalı, yerli toxumlarımızı artırıb əkinçilərimizi təmin etməliyik. Bu halda ərzaq və qida təhlükəsizliyimiz qorunmuş olar, heç vaxt xarici ölkələrdən asılılığımız olmaz.

# Sergey Markov: "COP29 Bakı konfransında mümkün olmayana nail olundu"

**"Azərbaycan bu gün qlobal cənubun, qlobal əksəriyyətin liderlərindən biridir. O, inkişaf etməkdə olan ölkələrə sözdə deyil, əməldə kömək edir"**

***Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov "Moskva-Baku" portalına müsahibəsində Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında sədrliyinin yekunlarını şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Sergey Aleksandroviç, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilən 29-cu sessiyasının nəticələrini necə qiymətləndirirsiniz?***

- Əlbəttə, Azərbaycanın COP29-a sədrlik edən ölkə kimi irəliləyişindən danışmaq olar. Düşünürəm ki, münaqişələrin bitmədiyi, müxtəlif tərəflər arasında dərin bölünmə və böhranın mövcud olduğu bugünkü geosiyasi şəraitdə iqlimlə bağlı konkret məqamlarda razılığa gəlmək çox dəyərlidir.

Məsələ burasındadır ki, son vaxtlar dünyada iqlimlə bağlı ciddi skeptisizm müşahidə olunur. İqlim gündəmini fəal şəkildə təbliğ edən qüvvələr sarsıdıcı məğlubiyyətə uğramağa başladılar. Bunu ABŞ (Bayden/Harris komandası), Almaniya, Fransa haqqında demək olar.









Biz görürük ki, əvvəllər ekoloji gündəmi irəli sürən Qərb dövlətləri indi ciddi daxili problemlər yaşayır və iqlim problemləri bunun fonunda kənara çəkilib.

Bunun fonunda inkişaf etməkdə olan ölkələr, əksinə, daha fəal mövqe tutublar. Azərbaycan COP29-un hazırkı sədri kimi nəticələrin olmamasının qarşısını aldı. Çünki konfransda iqlimin maliyyələşdirilməsinin razılaşdırılması ilə bağlı danışıqlar çox çətin keçdi və sammit daha bir gün uzadıldı. İnkişaf etməkdə olan ölkələr onlar üçün vahid iqlim maliyyəsinin yaradılmasını tələb etdilər, Qərb bloku ölkələri maliyyələşdirmə rəqəmini azaltmağa hər cür cəhd göstərdilər. Axı obyektiv baxsaq, Qərb ölkələri hazırda iqlimlə maraqlanmır, Ukraynaya sərmayə qoymalıdırlar, onlar tamamilə lazımsız müharibəyə qarışıblar və buna görə də bu dövlətlərin iqtisadiyyatının səmərəliliyi aşağı düşür. Və belə başa düşülür ki, inkişaf etməkdə olan ölkələrdə iqlim dəyişikliyi ilə mübarizənin əsas yükü inkişaf etmiş ölkələrin üzərinə düşür.

Nəticədə, Bakıda keçirilən COP29-da iqlim maliyyələşdirməsini 3 dəfə artırmaq mümkün oldu. Əgər əvvəllər 100 milyard dollar idisə, indi razılaşdırılmış məbləğ 300 milyard dollardır. Bundan əlavə, Azərbaycan BMT-nin iqlim konfransının sədri kimi illik maliyyələşdirmənin 1,3 trilyon dollara çatdırılması ilə bağlı gələcək hədəf təyin etməyi təklif edib. Həmçinin iqlim konfransında Paris sazişinin 10 il ərzində razılaşdırıla bilməyən 6-cı maddəsi təsdiq edilib. Bundan əlavə, inkişaf etməkdə olan ölkələrə yardım üçün itkilərin və zərərin ödənilməsi üzrə Fondun tam fəaliyyətə başlaması barədə razılaşmalar əldə olunub. Çətin geosiyasi vəziyyətdə və qlobal Şimalla qlobal Cənubun bir-birini anlamaması şəraitində bunu böyük nailiyyət hesab etmək olar. BMT-nin baş katibi də bunu vurğuladı. Bakı konfransında demək olar ki, mümkün olmayana nail olundu.

Təbii ki, Azərbaycanın 13 günlük iqlim konfransı keçirməsi onun beynəlxalq aləmdə imicini artırır. O, bir daha ədalət gündəmini-inkişaf etməkdə olan ölkələr üçün ədaləti təbliğ edir. Azərbaycan bu gün qlobal cənubun, qlobal əksəriyyətin liderlərindən biridir. O, inkişaf etməkdə olan ölkələrə sözdə deyil, əməldə kömək edir.

Konfrans Azərbaycanın iqtisadi yüksəlişinə də öz töhfəsini verir. COP29-da 196 ölkə təmsil olunub. İştirakçıların böyük axını oldu. İndi də müxtəlif ölkələrin nümayəndələri Azərbaycana turist kimi qayıdacaqlar.

***- COP29 Qərb qüvvələrinin bir sıra təxribatları ilə müşayiət olundu. Almaniyanın xarici işlər naziri Annalena Barbok Bakıda keçirilən iqlim konfransına Ermənistandan gəlib və COP29 tribunasından Azərbaycanda insan haqları problemlərindən danışıb. Bundan əlavə, eyni kürsüdən o, Rusiyanın dünyadakı guya mənfi amili mövzusunu qaldırmağa başladı. Daha sonra o, bildirdi ki, Azərbaycan ümumilikdə iqlim məsələsində birtərəfli oynayır. Bundan əlavə, COP29-da anti-Azərbaycan bəyanatları ilə tanınan iki amerikalı konqresmen iştirak edib...***

- Həqiqətən də, Azərbaycan COP29-da sədrliyinin məqsədlərindən birini iqlim gündəmi vasitəsilə qlobal Şimal ilə qlobal Cənub arasında körpülər qurmağı qarşısına qoyduğu halda, Qərb qüvvələri təxribatlar törətdi. Bir tərəfdən deyə bilərik ki, Qərb COP29-da körpülərin yaranmasının baş verməməsi üçün hər şeyi etdi. Amma onsuz da sənədlər qəbul edilib. İnkişaf etməkdə olan ölkələr təsdiq edilmiş maliyyələşdirməni yumşaq desək, kiçik hesab etsə də. Amma Azərbaycan öz tərəfdən mümkün olan hər şeyi etdi.

Bakıda keçirilən iqlim konfransından əvvəl və onun gedişində Qərbdən çoxsaylı təxribatlar olub. Amma burada deyə bilərik: əgər Berbok eyni platformada Azərbaycanı, hətta Rusiyanı tənqid edirsə, deməli, Bakı hər şeyi düz edir. Üstəlik Berbok Azərbaycan əleyhinə bəyanatları ilə tanınır. Görünür, o, müvafiq qüvvələrin təsiri altındadır. Rusiyaya qarşı tənqidlərə gəlincə, Burbok aqressiv maraqların təşviqi üçün yeni platforma tapmışdı.

COP29-dan əvvəl Qərb dövlətləri və strukturları tərəfindən atılan o antiazərbaycan addımlara gəldikdə Azərbaycan sadəcə olaraq buna əhəmiyyət verməməlidir. Çox vaxt Qərbin təsir etmək istədiyi ölkədə böyük hadisə planlaşdırılanda həmin ölkənin opponentləri fürsətdən istifadə edərək ona "hücum" edirlər. Və belə "hücumlar" avtomatik olaraq Azərbaycanın COP29-un sədri kimi böyük rolunun etirafıdır.

***- Erməni müxalifəti Azərbaycanın COP29 keçirməklə öz imicini yaxşılaşdırdığını dedi və onlar deyirlər ki, respublikanın hakimiyyət orqanları bu vəziyyətdən istifadə etmək imkanı qazansa da, heç nə etmədilər.***

- Ermənistan COP29-a getməkdən imtina etməklə sülh müqaviləsinin əleyhinə olduğunu göstərdi. İrəvanda nə sülh, nə də müharibə dövləti istəyirlər. Bundan əlavə, onlar iqlim gündəmində öz məsuliyyətlərini götürmək istəmirlər.

***Tərcümə - Elçin Bayramlı***

# Elm və mədəniyyət mərkəzi İrəvan



Tarixi İrəvan şəhəri azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühitin formalaşması bunun təsdiqidir. İrəvan şəhərində mövcud olmuş təhsil sistemi haqqında ən dolğun məlumat xanlığın Rusiya tərəfindən işğalından sonra 1829-1831-ci illərdə həmin ərazidə kameral siyahıyaalma keçirən rus tarixçi-statistiki İvan Şopenin 1852-ci ildə Sankt-Peterburqda çap olunmuş "Erməni vilayətinin Rusiyaya birləşdirilməsi dövrünün tarixi yaddaşı" əsərində verilmişdir. Həmin məlumatlardan aydın olur ki, İrəvan xanlığının ərazisindəki təhsil sistemi mahiyyət etibarilə Azərbaycanın digər xanlıqlarındakı təhsil sistemindən fərqli olmamışdır. İ.Şopenin yazdığına görə İrəvan xanlığının ərazisində təhsillə, əsasən, müəyyən təhsil görmüş din xadimləri məşğul olurdular. Hər bir məscidin nəzdində böyük və yaxud kiçik mədrəsə fəaliyyət göstərmişdir. Aşağı siniflərdə müəllimlər müdərris, yuxarı siniflərdə isə vaiz adlandırılırdılar. Mədrəsələrdə geniş dərs otaqları ilə





yanaşı, tələbələrin yaşadıqları kiçik otaqlar - hücrələr olurdu. Bəzi məscidlərdə adlı-sanlı müctəhidər dərs deyirdilər ki, onları dinləmək üçün ölkənin hər yerindən dinləyicilər gəlirdilər. İrəvan xanlığının süqutu ərəfəsində təkcə İrəvan şəhərindəki 8 məsciddə 200 şagird təhsil alırdı.

## İRƏVANDA İLK İKİSİNİFLİ DÖVLƏT QƏZA MƏKTƏBİ

Rusiya işğalı dövründə İrəvan şəhərində ilk ikisinifli dövlət qəza məktəbi 14 yanvar 1832-ci ildə açılmışdır. 15 mart 1868-ci ildə İrəvan qəza məktəbi dördsinifli klassik progimnaziyaya çevrilmişdir. Azərbaycanlı uşaqların da təhsil aldıqları bu məktəbi 1850-ci ildən 1880-ci ilədək 30 il ərzində İrəvan qəza məktəbini və progimnaziyanı üstüstə 558 azərbaycanlı bitirmişdi. Tarixi mənbələrə nəzər salsaq görərik ki, Cənubi Qafqaz Rusiya tərəfindən işğal edildikdən sonra həyatın bütün sahələri onun tərəfindən idarə olunmağa başladı. 2 avqust 1829-cu ildə Rusiya Maarif Nazirliyi "Zaqafqaziya məktəblərinin vəziyyəti haqqında" qərar qəbul etdi. Cənubi Qafqazda öz ideoloji və siyasi maraqlarını təmin etmək üçün qəbul edilmiş həmin qərarda qəza məktəblərinin yaranması və ümumi təhsil sistemi ilə idarə edilməsi öz əksini tapmışdı. Qərarda 1830-cu ildə başqa şəhərlərlə yanaşı, İrəvanda da 100 şagirdlik qəza məktəbinin açılması nəzərdə tutulsa da, həmin il bunun həyata keçirilməsi mümkün olmamışdır. Araşdırmalardan məlum olur ki, İrəvanda ilk qəza məktəbinin 1831-ci ilin mart-oktyabr aylarında açılmasına yenə də ciddi səy göstərilmiş, hansısa səbəblərdən gerçəkləşdirilməmişdir. Belə ki, müəyyən səylərdən sonra İrəvanda ilk qəza məktəbi 14 yanvar 1832-ci ildə açılmışdır.

Progimnaziya 31 mart 1881-ci ildə səkkizsinifli tam gimnaziyaya çevrilmişdi və sonralar İrəvan Oğlan Gimnaziyası adlanırdı. 1 yanvar 1883-cü ilə olan məlumata görə İrəvan gimnaziyasında təhsil alan 237 şagirddən 37-si azərbaycanlı olmuşdu. Mənbələrdə qeyd olunduğu kimi, ilk dəfə İrəvan qəza məktəbi kimi fəaliyyətə başladığı dövrdən 1918-ci il avqustun 6-da bağlanmasınadək keçən müddət ərzində İrəvan Oğlan Gimnaziyasına şəriət dərslərini və Azərbaycan dili fənnini 1836-1856-cı illərdə Molla Tağı Mahmud oğlu, 1856-1885-ci illərdə Mirzə Ələkbər Elxanov, 1885-1895-ci illərdə Firudin bəy Köçərli, 1895-1905-ci illərdə İsmayıl bəy Şəfibəyov, 1905-1906-cı illərdə Mirzə Məhəmməd Şeyxzadə, 1907-1918-ci illərdə Şeyx Abusəttar Kazımov tədris etmişlər.

## MÜQƏDDƏS RİPSİME GİMNAZİYASINI 36 AZƏRBAYCANLI QIZ BİTİRİR

İrəvanda fəaliyyət göstərən məktəblərdən biri də Müqəddəs Ripsime qızlar məktəbi idi. 1850-ci il yanvarın 2-də Qafqazın canişini Mixail Vorontsovun xanımı Yelizaveta Vorontsovanın təşəbbüsü və İrəvanda fəaliyyət göstərən Müqəddəs Nina Xeyriyyə Cəmiyyətinin idarə heyətinin qərarı ilə Müqəddəs Ripsime qadın məktəbi təsis edilmişdir. 9 iyul 1884-cü ildə bu məktəb üçsinifli qadın progimnaziyasına çevrilmişdi. 30 may 1898-ci ildə isə progimnaziya hazırlıq sinfi də təşkil edilməklə səkkizsinifli qadın gimnaziyasına çevrilmişdi. Ödənişli olan bu məktəbdə imkanlı azərbaycanlıların qızları da təhsil alırdılar. Təkcə 1916-1918-ci illərdə Müqəddəs Ripsime gimnaziyasını 36 azərbaycanlı qız bitirmişdi. İrəvan quberniyasının 1914-cü ilə dair "Yaddaş kitabçası"nda göstərilir ki, bu gimnaziyada şəriət dərslərini və Azərbaycan dilini Haşım bəy Nərimanbəyov tədris etmişdir.

Hələ XIX əsrin 50-60-cı illərindən etibarən İrəvan şəhərində özəl məktəblər də fəaliyyət göstərməyə başlamışdı. Özəl məktəbləri yalnız Rusiya təbəeliyi olan şəxslər Qafqaz Tədris İdarəsinin icazəsi ilə aça bilərdi. İki tip özəl məktəblər mövcud idi. Birinci tip məktəblərə məscidlərin və ya kilsələrin nəzdindəki müəllimlərin fərdi proqramı əsasında fəaliyyət göstərən ənənəvi mollaxana tipli məktəblər, ikinci tip məktəblərə isə yeni açılan, lakin öz tədris proqramını dövlət məktəblərinin proqramlarına uyğunlaşdıran məktəblər daxil idi. 1863-cü ildə İrəvanda 15 özəl azərbaycanlı və erməni məktəbləri mövcud idi. 1865-ci ildə şəhərdə 9 müsəlman ruhani məktəbi fəaliyyət göstərmişdir ki, orada 223 şagird təhsil almışdır. Həmin vaxt buradakı 6 erməni ruhani məktəbində 150 şagird təhsil alırmış. 1866-cı ildə məscidlərin nəzdindəki məktəblərdə şagirdlərin sayı 596 nəfərə çatırdı.

## CƏNUBİ QAFQAZDA MAARİFÇİLİK HƏRƏKATI

1880-ci ildə açılan İrəvan şəhər ibtidai məktəbi 1900-cü ildə üçsinifli Puşkin adına məktəbə çevrilmişdi. 1901-ci ildə Puşkin adına məktəbin nəzdində bazar günü məktəbi açılmışdı. Məktəbə milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq 16 yaşından 50 yaşınadək irəvanlılar qəbul edilirdilər. Puşkin adına məktəbdə rus və digər dillərlə yanaşı, Azərbaycan dili də tədris edilirdi. Mirzə Hüseyn Axundov məktəbin müsəlman bölməsinin müdiri olmaqla yanaşı, Azərbaycan dili müəllimi kimi də fəaliyyət göstərmişdir. 1881-ci il noyabrın 3-də tərkibində iki sinif olmaqla İrəvan Müəllimlər Seminariyasının I sinfinin açılışı olmuşdur. Seminariyanın ilk direktoru Yakob Suşevskinin səyi nəticəsində birinci il seminariyaya 9 müəllim 42 şagird cəlb edilmişdi. 1882-ci ildə seminariyanın II sinfi, 1883-cü ildə III sinfi açılmışdır. Qafqazda olan bütün müəllimələr seminariyası kimi, İrəvan müəllimlər seminariyası da 4 sinifdən ibarət olmuşdur.

İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühitin özü əhəmiyyətli rol oynamışdır. XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda maarifçilik hərəkatı geniş vüsət aldı. Regionda dünyəvi təhsil verən yeni tipli məktəbin - İrəvan Müəllimlər Seminariyasının açılması da məhz bu vaxtlara təsadüf edir. 1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır.

## AZƏRBAYCANLI PEDAQOJİ KADRLARIN İRƏVAN ŞƏHƏRİNDƏN UZAQLAŞDIRILMASI

İrəvanda təhsil öz inkişaf dövrünü yaşayıb. 1928-ci ildən İrəvanda Kənd Təsərrüfatı Texnikumunun azərbaycanlı bölməsi fəaliyyətə başlamış, 1933-cü ildən həmin bölmə müstəqil İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumuna çevrilmişdi. 1937-ci ildən İrəvan Pedaqoji İnstitutunun 3 fakültəsində azərbaycanlı bölməsi (dil-ədəbiyyat, fizika-riyaziyyat, tarix-coğrafiya) mövcud idi. "Könüllü köçürülmə" adı altında həyata keçirilən azərbaycanlıların Ermənistandan 1948-1953-cü illər deportasiyası nəticəsində azərbaycanlı məktəblərinin şəbəkəsi ciddi dağıntıya məruz qoyuldu. İrəvan Pedaqoji Texnikumu 1948-ci ildə tələm-tələsik Azərbaycanın Xanlar (indiki Göygöl) rayonuna köçürüldü. İrəvan Dövlət Pedaqoji İnstitutunun və Erməni Dövlət Qiyabi Pedaqoji İnstitutunun azərbaycanlı bölmələri (dil-ədəbiyyat, tarix, fizika-riyaziyyat) müvafiq olaraq Bakıdakı pedaqoji institutlara köçürüldü. Həmin dövrdə İrəvan şəhərində təlim Azərbaycan dilində olan iki orta məktəbin - Kirov adına qızlar və Əzizbəyov adına oğlanlar orta məktəblərinin müəllim və şagird kontingentinin xeyli hissəsi Azərbaycana köçmək məcburiyyətində qalmışdı. Bununla da azərbaycanlı pedaqoji kadrların İrəvan şəhərindən uzaqlaşdırılmasını istəyən Ermənistan rəhbərliyinin çoxdankı arzusu həyata keçmiş oldu.

Yalnız 1954-cü ildə tərkibində iki fakültə (fizika-riyaziyyat və Azərbaycan dili və ədəbiyyatı) olmaqla İrəvan Pedaqoji İnstitutunda yenidən azərbaycanlı bölməsi açıldı. İnstitutda yalnız Azərbaycan dili və ədəbiyyatı kafedrası müstəqil fəaliyyət göstərirdi. Kafedraya əvvəlcə tanınmış elm xadimi Əkbər Yerevanlı, onun vəfatından sonra isə Knyaz Mirzəyev rəhbərlik etmişdi. İnstitutun azərbaycanlı bölməsində müəyyən fənlərin tədrisi üçün Bakıdan müvafiq ixtisaslı alimlər dəvət edilirdi. 1961-ci ildə İrəvan Pedaqoji İnstitutunda Fizika-riyaziyyat və Ədəbiyyat-tarix fakültələri ləğv edilmiş, əvəzində 25 tələbənin təhsil aldığı İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsi açılmışdı.

1970-ci ildə İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsi də ləğv edilmiş, əvəzində 25 tələbə qəbul edilən Ədəbiyyat-tarix fakültəsi açılmışdı. Tarixən Azərbaycanın elm, maarif və mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhəri XX əsrin sonlarında etnik təmizlənməyə məruz qaldı.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Övladlarımızı teatra niyə APARMALIYIQ?

*Valideynlər olaraq övladlarımızı imkan daxilində teatra aparmalıyıq. Bunu edərkən, uşağı teatra aparmağın sadəcə əyləncəli bir fəaliyyət olduğunu düşünməməliyik. Bilməliyik ki, teatra baxmaq uşaq inkişafında çox təsirlidir. SİA mövzu ilə bağlı araşdırma aparıb.*

## Teatra baxmağın uşaq inkişafına verdiyi töhfələr...

*Teatr uşağınızın sosial bacarıqlarını inkişaf etdirə bilər*

Hekayələr uşaqların duyğularını öyrənmək və onu başa düşmək üçün təhlükəsiz bir yoldur. Həmçinin, hekayələr vasitəsilə uşaqlar empatiyanı öyrənməyə başlayırlar və bunu öyrənmək çox vaxt çox çətindir. Teatrda nağıl danışmaq uşaqları nağıl kitablarını oxumaqdan daha təsirli şəkildə emosiyalara məruz qoya bilər. O, uşaqlara sevgi, dostluq, zorakılıq və ya ölüm kimi real həyatda yaşamadıqları duyğuları əyləncəli, təhlükəsiz mühitdə təqdim etməklə dramatik və kədərli məsələləri canlandıra bilər.







## Teatr uşağınızın həyat bacarıqlarını inkişaf etdirə bilər

Bir uşaq teatr tamaşasına getdikdə bu təcrübə onun təxəyyülünü xeyli genişləndirə bilər. Bu, onların yaradıcılığını artıra, böyük savadlılıqla tanış edə, tarixi biliklərini təkmilləşdirə bilər.

## Teatr sizə uşağınızla çətin məsələləri müzakirə etmək imkanı verir

Bəzi uşaqlar müəyyən şeylər haqqında danışmaqda, tez-tez müzakirə mövzusunu gündəmə gətirmək üçün bir yol tapmaqda çətinlik çəkərlər. Uşaqları müxtəlif və bəlkə də çətin hekayə xətləri ilə tanış etməklə həmin mövzu ilə bağlı hisslərini və ya narahatlıqlarını ifadə etmək üçün söhbət başlanğıcı yarada bilərsiniz.

## Teatr uşağınızın dil bacarıqlarını inkişaf etdirə bilər

Teatr nağıl danışmaqdan ibarətdir və nağıl danışmaq uşağın ünsiyyət və dil bacarıqlarını inkişaf etdirməsinə kömək edir. Uşağınızı teatr tamaşaları ilə tanış etmək, şübhəsiz ki, onun daha yaxşı ünsiyyət qurmasına kömək edə bilər.





## Teatr uşağınızın ailə bağlarını və münasibətlərini yaxşılaşdıra bilər

Uşağınızı canlı şouya, tamaşaya və ya musiqili tamaşaya aparmağınızdan asılı olmayaraq, teatra getmək gündəlik həyatdan uzaqda əla bir ailə fəaliyyəti ola bilər.

## Gerçək dünyadan sağlam qaçış

Uşağınızın hansı yaşda olmasından asılı olmayaraq, onların hamısının sakitləşməsi və günlük öz çətinliklərindən qaçması üçün vaxt lazımdır. Uşağınızı teatra apardığınız zaman bunu ona ən sağlam şəkildə təmin etmiş olursunuz.

## Texnologiyaya fasilə vermənizi təmin edir

Uşaqlar və yeniyetmələr üçün texnologiyaya ara vermək özünədəyər hissini artırmağa kömək edir.

## Dəyərlər

Teatrın mühüm faydalarından biri də uşaqlara dəyərləri öyrətməsidir. Uşağınızın yaşına uyğun proqram tapmaq üçün diqqətli olun. Kitab oxumaq və filmlərə baxmaq kimi, teatra getmək də sevgi, dostluq, hörmət və tolerantlıq kimi dəyərləri və anlayışları öyrənmək üçün yaxşı bir yoldur.

## Daha çox mədəni məlumat

Gördüyünüz kimi, teatr uşaqların əylənərkən öyrənə biləcəyi bir məkandır. Uşağınızın yaşına uyğun teatr tamaşalarına baxmaq musiqi, oyunlar və rənglər vasitəsilə klassik ədəbiyyatı öyrənməyə kömək edir.

## Komanda işi

Teatrın öyrətdiyi ən mühüm dəyərlərdən biri komanda işidir. Uşaqlar burada dostluq etməyin vacibliyini öyrənirlər. O, həm də əməkdaşlıq etməyi və lazım olanda başqalarına kömək etməyi öyrənir. Mövzu ilə bağlı övladını teatra aparan və aparmayan valideynlərin fikirlərini də öyrəndik:

**İlqanə Piriyeva:** "Əvvəla, biz Bərdədə yaşayırıq və burada teatr yoxdur. Amma Bakıya gələndə təbii ki aparmaq istəyərəm.

İkincisi isə hələ uşaqlarımın yaşı çox azdır və düşünürəm onları teatra aparsam belə indi heçnə başa düşməyəcəklər. Məncə, uşaq az da olsa dərk etdikdən sonra aparmaq daha məqsədəuyğundur".

**Aliyə Qarayeva:** "Mən vaxtilə qızımı bir çox teatr və tamaşalara aparmışam. İndi də əziyyətimin qarşılığını görürəm. Bu onun dünyagörüşünə, fikirlərinin formalaşmasına və özünü müdafiəsinə ciddi şəkildə təsir edir. Təxminən 3-4 yaşından biz bunu edirdik. Düşünürəm, bu uşağın inkişafı üçün çox önəmlidir. Teatr bir mədəniyyətdir və yaşından asılı olmayaraq hər kəs faydalanmalıdır".



Türkan Həsənquliyeva: "Uşaqları teatra aparmaq onlarda fərqli davranış mədəniyyəti yaradacaq deyə düşünürəm. Bu onların zehnini sakitləşdirmək üçün əla yoldur. Övladınızın hansı yaşda olmasından asılı olmayaraq, onun dincəlmək və hər gün yaşadığı həyatdan qısa müddətli də olsa uzaqlaşmağa ehtiyacı var.

Teatr həm də dil, ünsiyyət bacarıqlarını inkişaf etdirən bir məkandır. Teatr uşaqlara nağıllar vasitəsilə daha yaxşı ünsiyyət qurmağa və dilini zənginləşdirməyə kömək edir".

**Sənəm Paşayeva:** "Keçən ay uşaqlarımı Kukla teatrına aparmışam. Onlara çox maraqlı idi və çox sevindilər. Dedilər, "Ana bizi yenə bura gətir".

***Ayşən Vəli***

# İddia təmin olunsa Əli Kərimli 2 il müddətinə azadlıqdan məhrum ediləcək

Yalan, populist çıxışlar, iddialı və hikkəli fikirlərlə uzağa getmək mümkünsüzdür. Ola bilər ki, bu cür metodlarla gerizəkalı, məram və məqsədlərini anlamayan bir qrupu yoldan çıxartmaq və özünün məkrli planlarına alət edilsin. Ancaq belə vasitə ilə davamlı fəaliyyət göstərmək çətindir. Daha doğrusu "oğurluqla pis yol tutanın ömrü 40 gün çəkər" məsəlinə uyğun olaraq yalan və populist fikirlərlə mövqe sahibi olacaqlarını, geniş dəstək qazana biləcəklərinin də xəyalları 40 gün çəkir. Elə götürək dağıdıcı müxalifət düşərgəsində təmsil olunan Əli Kərimli, Arif Hacılı, İsa Qəmbər, Cəmil Həsənli və bu kimi digər partiya mənsublarının yalan və populizm üzərində qurulan fəaliyyətlərini. Bu məxluqlar siyasi fəaliyyətləri dönəmin də düz danışmaq, ədalətli mövqe sərgiləmək, səmimi olmaq, haqqı və ədalətin yanında olmaq kimi insani prinsiplərdən və qaydalardan uzaq olublar. Onların ki, ancaq dövlətə qarşı əsassız ittihamlar səsləndirmək, xalqını sevən, dövlətinə bağlı olan şəxsləri jantaj etmək, haqlarında böhtanlarla çıxış etmək olub. Ona görə də, siyasi uğur qazanmaq baxımından nəticə əldə edə bilməyiblər. Bu gün də onlar Azərbaycan müxalifətinin qara ləkəsi hesab edilirlər və əqidə dostları, məslək yoldaşları hesab etdikləri şəxslər tərəfindən belə tənqid olunurlar. Əli Kərimlinin partiyadaşları tərəfindən sərt şəkil də tənqid olunması, hətta məhkəməyə verilməsi qeyd olunanlara misal ola bilər.

## Əli Kərimlini ciddi cəza gözləyir

Təbii ki, lider hesab olunan müxalif partiya sədrlərinin səhv, yanlış siyasət aparmalarından ən çox əziyyəti sıravi üzvlər, xüsusilə də partiyaların özləri çəkirlər. Ə.Kərimliyə qarşı partiyadaşının irəli sürdüyü ittihamdan yalnız Ə. Kərimli zərər görmür, zatən o bu kimi tənqidlərə və ittihamlara öyrəncəlidir, daha çox zərbənin AXCP aldığı desək, səhv etmərik. Çünki Ə.Kərimlinin ağılsız siyasəti səbəbindən AXCP ictimai siyasi proseslərdən kənarda qalır, cəmiyyətin qınaq obyektinə çevrilir, üzvləri sərt tənqidlərə məruz qalır. Parçalanmaların, qopmaların yaranmasının da səbəbi Ə.Kərimlinin fars-molla rejiminin düşüncəsiz mollalarısayağı fəaliyyət yolu tutmasından qaynaqlanır. Elə cəbhəçilər də var ki, istefa vermək haqqında düşünmür, əksinə Ə.Kərimli ilə məhkəmə çəkişməsinə girərək hüquqlarının müdafiəsi uğrunda mübarizə aparır. Hətta AXCP Nəzarət Təftiş Komissiyasının sədri olmuş, daha sonra partiya sıralarından xaric edilən Əliyev Aydın Sədədqulu oğlu Əli Kərimlinin Cinayət Məcəlləsinin 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri ilə məsuliyyətə cəlb edilməsi üçün Nəsimi rayon Məhkəməsinə müraciət edib. Nəsimi rayon Məhkəməsində AXCP sədri Əli Kərimli barəsində xüsusi ittiham qaydasında cinayət işinin başlanması üçün şikayətə baxılıb. Müəyyən araşdırmadan sonra proses dekabrın 18-ə qədər təxirə salınıb. Aydın Əliyev bildirib ki, Əli Kərimli müxtəlif internet kanallarında, AXCP Ali Məclisinin toplantısında onun etibarını itirdiyini, hökumətpərəst siyasətinə görə partiyadan xaric edildiyini, daha sonra hakimiyyətin məhkəmələrin əli ilə onu zorla partiyaya bərpa etdirdiyini deyib: "Əli Kərimli onu da bildirib ki, hakimiyyət Aydın Əliyevin vasitəsilə - onun məhkəmədə qaldırdığı iddia əsasında AXCP-nin keçirdiyi qurultayın nəticələrini ləğv elətdirib. Ə.Kərimli ona böhtan atmaqla şərəf və ləyaqətimi təhqir edib".



## Əli Kərimli sədrlikdən uzaqlaşdırıla bilər

A.Əliyevin sübut və dəlilləri məhkəməyə təqdim etməsi onu deməyə əsas verir ki, Ə.Kərimlinin cəzadan yaxa qurtarması mümkün deyil. Əgər A.Əliyevin iddiası təmin edilsə o zaman Əli Kərimlini 6 aydan 2 il -ə qədər azadlıqdan məhrum edilməsi cəzası gözləyir. Ən yaxşı halda müxtəlif formada islah işlərinə cəlb edilməsi cəzasını ala bilər. Təbii ki, əgər məhkəmə A.Əliyevin tam və ya qismən də olsa iddiasını təmin edərsə o hal da Ə.Kərimli üçün siyasətdə qalmaq utancverici olacaq. Yəni xəcalət çəkmək hissini itirsə də, AXCP sədrliyindən getməli olacaq. Bununla da AXCP Ə.Kərimli kimi bir diktatorun və yanlış siyasət aparmaqla cəbhəçilərə böyük hörmətsizliklər gətirən şəxsin girovluğundan azad edilər. Əgər Ə.Kərimli həbs olunsa və sədrlikdə qalmaqda israr etsə, o zaman AXCP mövcudluğunu itirər. Yəni qeyri-rəsmi də olsa fəaliyyətini dayandıra bilər. Nəzərə almaq lazımdır ki, AXCP-nin 2023-cü iyulun 5-də keçirildiyi iddia olunan qurultayının nəticələri Ədliyyə Nazirliyi reyestrə salınmasından imtina edib. Buna səbəb kimi AXCP Nəzarət-Təftiş Komissiyasının sədri Aydın Əliyevin qurultayın qərarlarının tanınmaması barədə məhkəməyə müraciət etməsi göstərilib. Aydın Əliyev bildirib ki, ona Nəzarət-Təftiş Komissiyasının sədri kimi partiyanın şəhər və rayon təşkilatlarının konfranslarında iştirak etmək istəyimə baxmayaraq imkan verməyiblər və partiya sənədləri ilə tanış olmaqdan kənarlaşdırıblar. Bu səbəblərdən AXCP-nin qurultayının nəticələrinin etibarsız hesab edilməsi barədə "Siyasi Partiyalar haqqında" qanunun 21.5 uyğun olaraq 8 avqust 2023-cü ildə Nəsimi rayon Məhkəməsinə müraciət etmişəm. Bir ilə yaxın çəkən məhkəmə çəkişməsindən sonra məhkəmə mənim iddia ərizəmi təmin edib, qurultayın nəticələrinin etibarsız hesab edilməsi barədə qətnamə qəbul edib. Məhkəmənin qətnaməsi məni qane edir. Qətnamənin yerinə yetirilməsi üçün sonadək mübarizə aparacam".

Bütün bu və digər amillər təsdiq edir ki. AXCP Ə.Kərimlinin yanlış siyasət aparması səbəbindən parçalanma mərhələsini başa vurub, dağılma dövrünə adlayır. Vəziyyətin aradan qaldırılması, problemin həll edilməsi isə mümkünsüz görünür. Çünki Ə.Kərimli AXCP sədrliyində qalmaqda israr edir. Həm də o hüququn aliliyinə qarşı hörmətsiz davranış nümayiş etdirir. Bu isə daxildə əlavə problemlərin yaranmasına gətirib çıxarır ki, bu problemlərin də həll edilməsi mümkün deyil. Yalnız bir halda AXCP mövcudluğunu qoruyub saxlaya, hətta normal inkişafını təmin edə bilər. O da Ə.Kərimlinin sədrlikdən getməsidir. Əks halda AXCP tarixin arxivinə göndəriləcək.

***İLHAM ƏLİYEV***

# "Baydenin yanlış seçdiyi bu siyasət onun üçün uğur gətirmədi"

**"Yarımçıq layihə əsasında olsa da, Azərbaycan-Ermənistan sülh sazişinin COP29 ərəfəsində imzalanmasında ən maraqlı şəxslərdən biri Bayden idi". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.**

O bildirib ki, Bayden burada Amerika dövlətinin mənafelərindən daha çox özünün şəxsi hakimiyyət marağını düşünürdü: "Çünki Azərbaycan dövlətinə COP29 müstəvisində təzyiq göstərmək planını həyata keçirirdi. Biz COP29-la bağlı Qərb dairələrinin və Amerikanın prezidentinin Azərbaycan barədə hansı niyyətlərdə olduğunu bilirik. Eyni zamanda COP vasitəsilə Azərbaycana təzyiq göstərərək yarımçıq vəziyyətdə olsa da, sülh sazişinin imzalanmasına ölkəmizi vadar etmək istəyirdi. Birinci növbədə Baydeni düşündürən onun seçki prosesində erməni diasporunun mənafelərini düşünmək idi. Bu yolla seçki prosesində erməni diasporunun və lobbisinin daha aktiv dəstəyini almaq istəyirdi. Çünki onlar da maraqlı idilər ki, Ermənistanın təklif etdiyi yarımçıq sülh sazişinin əsasında Azərbaycan sülhə getməli olsun".



Onun sözlərinə görə, burada ikinci amil Ermənistanın təklif etdiyi yarımçıq sülh sazişini imzalamaqdan ibarət idi: "Baydenin əsas mənafelərindən biri də sülh sazişininin yarımçıq vəziyyətdə imzalanması ilə gələcək üçün münaqişənin yeni bir mərhələsinə baza saxlamaqdan ibarət idi. Hamı bilir ki, sülh sazişinin o cür yarımçıq vəziyyətdə imzalanması bölgəyə tam uzun müddətli sülh gətirə bilməzdi. Ya onun arxasınca yarımçıq məsələlər də həll olunmalı idi, ya da bunun sonu yeni bir gərginlik idi. Nəzərə alsaq ki, Ermənistan digər qalan məsələlərə bağlı Azərbaycanla razılığa gəlmək istəmir. Yarımçıq vəziyyətdə imzalanmış sülh sazişinin 100 faiz ehtimalla demək mümkündür ki, gələcək yeni münaqişənin bazası olacağı şübhəsiz idi. Buna görə də, Bayden yarımçıq sülh sazişinin Azərbaycan tərəfindən imzalanmasında maraqlı idi və təzyiq göstərirdi. Digər tərəfdən Bayden yarımçıq sülh sazişinin imzalanmasına nail olmaqla münaqişənin gələcək mərhələlərində bizim bölgədəki proseslərə daha aktiv müdaxilə üçün şərait və imkan saxlamağa çalışırdı. Buna görə də, Ermənistanın təklif etdiyi sülh sazişinin yarımçıq vəziyyətdə imzalanmasında maraqlı idi və buna görə Azərbaycana təzyiqlər göstərirdi. Təsadüfi deyil ki, COP-dan əvvəl həm Azərbaycan, həm də Ermənistanın dövlət başçılarına göstərdiyi eyni məzmunlu məktublarda da Bayden bu niyyətlərini açıq-aşkar büruzə verirdi. Çünki açıq şəkildə Azərbaycanı sülh sazişinin razılaşmamış maddələri üzərində açıq kompromislərə səsləyirdi. Hansı ki, bu kompromislər Azərbaycan üçün prinsipial məsələlərdir. Azərbaycan Ermənistan konstitusiyasının dəyişdirilməsi olmadan sülh sazişinə getməyi sadəcə mümkünsüz hesab edir. Amma Bayden Azərbaycanı bu məsələyə hətta konstitusiya dəyişikliyi olmadan belə getməyə vadar etmək istəyirdi. İstəyirdi ki, konstitusiya dəyişikliyi olmadan da Azərbaycan Ermənistanla sülh sazişi imzalasın. Amma dəqiq və doğru seçilməmiş siyasətin Bayden üçün sonda məğlubiyyət olacağı əvvəldən görünürdü.





Təəssüf ki, Bayden bunu görmürdü. Sonda da təsdiqləndi ki, Baydenin yanlış seçdiyi bu siyasət onun üçün uğur gətirmədi. Onun ən böyük səhvi isə Azərbaycanı və Ermənistanı Azərbaycanın mənafelərinin ziddinə yarımçıq sülh sazişinin imzalanmasına məcbur etmək idi. Sonda Bayden həm Prezident kürsüsünü itirdi, həm də bölgədə gedən proseslərə daha aktiv müdaxilə imkanlarını əldən verdi".

***Söylü Ağazadə***

# Qarabağın inciləri: mikrofonsuz xanəndə

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*

**"İsfəndiyar Cavanşirov" deyəndə əksəriyyət onun kim olduğunu bilmir, amma "Xan əmi" demək kifayətdir ki, kimdən bəhs etdiyimiz anlaşılsın. 16 yaşından sonra öz adı istifadə edilməyən, Xan Şuşinski kimi tanınan məşhur xanəndə 1901-ci ildə avqust ayının 20-si Şuşada anadan olub. Ailəsinin Qarabağ xanları nəsli ilə qohumluq əlaqəsi olub.**







Öz xatirələrində danışırdı ki, lap uşaq ikən evdə oxuyarkən səsinin gücündən evdəki qab-qacaq cingildəyirmiş. Buna görə də təbi gələndə evdə yox, açıq səma altında, dağlarda oxuyurmuş. Onun peşəkar musiqi təhsili 16 yaşında başlayır. Onun səsinin möcüzəsinə görə İtaliyaya dəvət edirlər, lakin atası getməsinə icazə vermir. Elə həmin yaşlarda da ustadı İslam Abdullayevlə birgə iştirak etdiyi məclisdə təbrizli xanəndə Əbdülhəsən Xan İqbalın yolu ilə "Kürd-Şahnaz" muğamını heyrətamiz bir tərzdə ifa edir, müəllimi ona ifa etdiyi muğamın müəllifinin şərəfinə Xan adını verir. Xanın bir xanəndə kimi yetişməsində, müəllimindən əlavə Cabbar Qaryağdıoğlunun və Seyid Şuşinskinin böyük təsiri olub.











Qeyd etmək lazımdır ki, Xan Şuşinskinin təsirləndiyi şəxslərdən biri olan Şeyid Şuşinski o dövrün görkəmli xanəndəsi Əbdülhəsən xan İqbali Azər ilə yaxından dost olub. Əbülhəsən xan vallarından birində "Hümayun" muğamını oxuyaraq, üzərində onu Seyid Şuşinskiyə həsr etdiyini yazdırmışdı.

1920-ci illərdə Xan Şuşinski Bakıya gələrək öz ifaçılıq fəaliyyətini genişləndirir. 1920-ci ildə Bakıdan Qarabağa təbliğat konsertləri vermək üçün gələn bolşevik təşviqat briqadasına daxil olan Cabbar Qaryağdıoğlu Xan Şuşinskini də briqadaya dəvət edir və birlikdə bütün Qarabağda konsert verirlər. Bakıya gəldikdən sonra buradakı ilk rəsmi çıxışı isə 1923-cü ildə olur. Bu çıxış Azərbaycan Dövlət Filarmoniyasında baş tutur. Səsi bütün ölkəyə, ölkə hüdudlarından kənara yayılan Xan gündən-günə məşhurlaşır, bir çox ölkələrdə və şəhərlərdə qastrol səfərlərində olur.

Xan Şuşinski ilə Səməd Vurğunun möhkəm dostluq əlaqələri olub. Səməd Vurğun Xan Şuşinskinin səsini ilk dəfə ötən əsrin iyirminci illərində Gəncədə eşidib, elə o vaxtdan da xanəndənin sənəti, ecazkar səsi onu məftun eləyib. Çox çəkmədən hər iki sənətkar şəxsən tanış olur və bu tanışlıq sonralar möhkəm və səmimi bir dostluğa çevrilir. Vaqif Səmədoğlu öz xatirələrində deyir ki, Səməd Vurğunun elə bir məclisi olmazdı ki, Xan orada iştirak etməsin. Xanəndənin səsinin məftunu olan Səməd Vurğun özünün məşhur "Azərbaycan" şeirində Xanın səsini təsvir edir:

Könlüm keçir Qarabağdan,
Gah o dağdan, gah bu dağdan,
Axşamüstü qoy uzaqdan
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi.

1934-cü ildə Xan Şuşinski Tiflis şəhərində keçirilən Zaqafqaziya xalqlarının birinci incəsənət olimpiadasında böyük müvəffəqiyyət qazanaraq, birinci mükafata layiq görülür. 1943-cü ildə Azərbaycan Xalq Artisti adına layiq görülür. Bu fəxri ada layiq görülməsindən bir il sonra, yəni 1944-cü ildə Məhəmməd Rza Şah Pəhləvinin dəvəti ilə İrana qastrol səfəri edir. Bu səfər zamanı Tehran da daxil olmaqla, 4 şəhərdə konsert verir.

Xan Şuşinski 1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəznində "Muğam studiyası" yaradır və burada gənc xanəndələrə muğamın sirrlərini öyrədir. O, həmçinin Azərbaycan Dövlət Musiqi Məktəbində dərs deyib, muğam ifaçılarının yeni nəslini yaradır. Xan Şuşinski həmçinin, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecində (Asəf Zeynallı adına Musiqi Məktəbi) müəllimliklə də məşğul olub.

Xanın repertuarında "Mahur-Hindi", "Bayatı-Qacar", "Qatar" dəsgahları, "Qarabağ şikəstəsi", "Arazbarı", "Heyratı" zərbi muğamları ilə yanaşı, xalq mahnıları və təsniflər böyük yer tuturdu. Xan öz repertuarına yalnız xalq mahnılarını daxil edir, bəstəkar mahnılarından yalnız Üzeyir Hacıbəyovun bəstələrini ifa edib. Ötən əsrin əvvəllərində xanəndələr öz səslərini Polşada lentə yazdırırdılar. Xan da orada səs yazdırdığı zaman onu doğulduğu Şuşanın şərəfinə Şuşinski deyə çağırırlar, beləcə Xan Şuşinski adı yaranır. Azərbaycan musiqi tarixinin korifeyi Xan Şuşinskinin səsindən cəmi 240 dəqiqəlik lent yazısı qalıb.

Xan Şuşinskinin ən məşhur ifalarından olan "Şuşanın dağları" mahnısının orijinalında "başı dumanlı" ifadəsi var. Lakin SSRİ rəhbərliynin "Sovet Şuşasının başı dumanlı ola bilməz" iradı ilə mahnı sözləri dəyişdirilir və "deyil dumanlı" edilir. 1937-ci ildə Hüseyn Cavidin qəzəllərini məsnəvi üstündə ifa etdiyinə görə Xan Şuşinski efirlərə buraxılmır. Üzeyir Hacıbəyov onu Opera və Balet teatrına dəvət edir. Lakin xanəndə "mən üzümə qrim çəkib səhnəyə çıxa bilmərəm" deyib imtina edir, amma "O olmasın, bu olsun" filmində çəkilməyə razılıq verir.

İki dəfə ailə quran xanəndənin övladı çox gec olur. Xatirələrində "süsən sünbül bitirmişəm, ömrü başa yetirmişəm, balam hanı" deyə oxuyarkən, əslində öz övlad qübarını dilə gətirdiyini deyirdi. 55 yaşı olanda qızı Bəyimxanım doğulur. Bundan sonra daha 3 övladı dünyaya gəlir. Övladları onun ikinci evliliyindən olur, ilk xanımı ona övlad verə bilmədiyi üçün ikinci dəfə evlənməyə məcbur edir. Xanın hər iki xanımı eyni evdə yaşayıb.

Xan Şuşinski ilə bağlı ən maraqlı məqamlardan biri də odur ki, o ömrünün sonuna kimi mikrofonsuz oxuyub. 1943-cü ildə Moskvadan gələn musiqişünaslar Xandan rica ediblər ki, ağzının içinə, boğazına baxmağa icazə versinlər. Onlar inanmayıblar ki, səsgücləndirici olmadan bir insan bu qədər zildən oxuya bilər. Xanın güclü yaddaşı olub, o qədər güclü ki, çoxları onun yadında bu qədər qəzəli, mahnını saxlaya bilməsinə heyran olurdu. Ömrünün ixtiyar çağlarında belə yaddaşında minə yaxın şeir və qəzəli təhrifsiz saxlayıb, söyləyə və oxuya bilirdi.

Xanəndə ömrünün son illərində şəkərli diabetdən əziyyət çəkir. Ölümündən 10 il əvvəl qavalı yerə qoyur və bir daha oxumur. O, bu addımını səhnədən vaxtında getməyin mühüm olması ilə əlaqələndirir. O, 18 mart 1979-cu ildə, 78 yaşında vəfat edir və İkinci Fəxri Xiyabanda dəfn olunur.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
27 noyabr
2024-cü il

# Ötən il dünyada hər 10 dəqiqədə 1 qadın öldürülüb!

*BMT həyəcan təbili çalır..*



2023-cü ildə dünyada 85 minə yaxın qadın və qız cinayət qurbanı olub. Qətllərin 60 faizi ailə üzvləri tərəfindən törədilib. Bu rəqəmlər Birləşmiş Millətlər Təşkilatının bazar ertəsi günü açıqladığı hesabatda yer alıb. Məlumata görə, ötən il hər 10 dəqiqədə bir qadın həyat yoldaşı və ya digər ailə üzvləri tərəfindən qətlə yetirilib. Bu göstərici üzrə ən yüksək nisbət Afrikada qeydə alınıb. İkinci və üçüncü yerlərdə Şimali və Cənubi Amerika, həmçinin Okeaniya gəlir.

BMT vurğulayır ki, qadın qətlləri ilə bağlı yeni hesabat qurbanlara adekvat dəstəyi təmin etməklə cinayətkarları məsuliyyətə cəlb edən güclü ədalət sistemlərinin qurulmasına ciddi ehtiyac olduğunu göstərir.

## Qaxda 3 yaşlı uşaq dərmandan zəhərlənib

Qaxda azyaşlı dərmandan zəhərlənib. Qax rayon sakini, 2021-ci il təvəllüdlü Elmar Qadaşov nəzarətsiz qalaraq evdə olan dərmandan zəhərlənib. Hazırda azyaşlının xəstəxanada müalicəsi aparılır, vəziyyəti qənaətbəxşdir. Araşdırma aparılır.



## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Ronaldo karyerasında 913-cü qolunu vurub

Futbol üzrə Asiya Çempionlar Liqasında 5-ci turun oyunları keçirilir. Kriştiano Ronaldonun çıxış etdiyi "Əl-Nəsr" (Səudiyyə Ərəbistanı) Qətər təmsilçisi "Əl-Qarafa"nın qonağı olub və 3:1hesablı qələbə qazanıb. Ronaldo oyunda dubl edib. Bu, portuqaliyalı hücumçunun karyerasında 913-cü qolu olub.




## Ali Məhkəmədən kreditlərlə bağlı MÜHÜM QƏRAR

Ali Məhkəmə kredit müqaviləsindən irəli gələn tələblər üzrə kredit öhdəliyinin mövcudluğunu sübut etmək vəzifəsinə dair konkret iş üzrə qərar qəbul edib. Qərarda qeyd edilib ki, kredit müqaviləsindən irəli gələn tələblər üzrə kredit öhdəliyinin mövcudluğunu sübut etmək vəzifəsi iddiaçının (kreditorun) üzərinə düşür.




Bu məqsədlə iddiaçı tərəfindən məhkəməyə kredit müqaviləsi (əsli və ya lazımi qaydada təsdiq edilmiş surəti), o cümlədən kredit məbləğinin cavabdehə verilməsini təsdiq edən sənədlər təqdim edilməyibsə və təqdim edilmiş ödəniş qəbzlərindən onların hansı müqavilə üzrə ödənildiyi müəyyən olunmursa, öhdəliyin mövcudluğu sübuta yetirilmədiyindən bankların bu kateqoriya tələbləri əsaslı hesab edilmir. Bankın təqdim etdiyi hesabdan çıxarış və maliyyə arayışı isə birtərəfli qaydada tərtib edilmiş sənədlər olduğundan həmin halı təsdiq edən mötəbər sübutlar kimi qəbul edilmir.

## ELAN

Bank "BTB" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının növbədənkənar ümumi yığıncağı 27.12.2024-cü il tarixində saat 11:00-da Bankın Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov , 27 ünvanında yerləşən Baş ofisində keçiriləcəkdir. Səhmdarlar yığıncağın gündəliyi ilə Bankın Baş ofisində tanış ola bilərlər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700